Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Azərbaycanın görkəmli şəxsiyyətləri*

# AİDA İMANQULİYEVA

(Aida Nəsir qızı İmanquliyeva)

*Biblioqrafiya*

**BAKI – 2019**

**KBT** Я19:Ш+Ш161.1д
**UOT** 016:811.411.21–057

**Tərtib edən:** **Mədinə Vəliyeva**

**Elmi redaktor:** **Kərim Tahirov,**
*professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Mehriban Cəfərova**

**Aida İmanquliyeva** (Aida Nəsir qızı İmanquliyeva): biblioqrafiya / Tərt. ed. M.Vəliyeva; elmi red. K.Tahirov; red. M.Cəfərova.- Bakı, 2019.- 240 s.

Azərbaycan Milli Kitabxanasının “Azərbaycanın görkəmli şəxsiyyətləri” seriyasından tərtib etdiyi “Aida İmanquliyeva” biblioqrafiyası Azərbaycanın görkəmli şərqşünası, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın anadan olmasının 80 illiyinə həsr edilmiş fundamental biblioqrafiyadır. Biblioqrafiyada A.İmanquliyevanın kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, şərqşünasın həyat və yaradıcılığını əks etdirən zəngin materiallar öz əksini tapmışdır.

Biblioqrafiya ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

ISBN 978 9952 526 29 5

**©Azərbaycan Milli Kitabxanası, 2019**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Remarkable people of Azerbaijan*

# AIDA IMANGULIYEVA

(Aida Nasir gizi Imanguliyeva)

*Bibliography*

BAKU – 2019

**Compiler:** **Medina Veliyeva**

**Scientific editor:** **Karim Tahirov,**
*professor,*
*Honored worker of culture*

**Editor:** **Mehriban Jafarova**

**Aida Imanguliyeva** (Aida Nasir gizi Imanguliyeva): bibliography / Comp. M.Veliyeva; sc. editor K.Tahirov; editor M.Jafarova.- Baku, 2019.- 240 p.

The bibliography "Aida Imanguliyeva" compiled by the Azerbaijan National Library from the series of "Remarkable people of Azerbaijan" is fundamental bibliography which dedicated to the 80th anniversary of the outstanding orientalist, literary critic, translator, doctor of philological sciences, professor Aida Imanguliyeva. The bibliography reflects the books of Aida Imangulieva, her works published in periodicals, textbooks, collections, as well as materials about the life and creativity of the orientalist.

The bibliography is intended for literary critics, researchers, librarians-bibliographers and a wide range of readers.

**©Azerbaijan National Library, 2019**

Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan
Milli Kitabxanası

*Выдающиеся деятели Азербайджана*

# АИДА ИМАНГУЛИЕВА

(Аида Насир кызы Имангулиева)

*Библиография*

БАКУ – 2019

**Составитель:** **Медина Велиева**

**Научный редактор:** **Керим Тахиров,**
*профессор,*
*Заслуженный работник культуры*

**Редактор:** **Мехрибан Джафарова**

**Аида Имангулиева** (Аида Насир кызы Имангулиева): библиография / Сост. М.Велиева; науч. ред. К.Тахиров; ред. М.Джафарова.- Баку, 2019.- 240 стр.

Библиография «Аида Имангулиева», составленная Национальной Библиотекой Азербайджана в серии «Выдающиеся деятели Азербайджана» является фундаментальной библиографией, посвященной 80-летию выдающегося востоковеда, литературоведа, критика, переводчика, доктора филологических наук, профессора Аиды Имангулиевой. В библиографии отражены книги Аиды Имангулиевой, ее труды, опубликованные в периодической печати, учебниках, сборниках, а также материалы о жизни и творчестве востоковеда.

Библиография предназначена для литературоведов, исследователей, библиотекарей-библиографов и широкого круга читателей.

**© Национальная Библиотека Азербайджана, 2019**

## Göstərici haqqında

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından hazırladığı bu biblioqrafiya görkəmli şərqşünas alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor, tənqidçi, tərcüməçi Aida Nəsir qızı İmanquliyevaya həsr edilmişdir. Biblioqrafiya professor Aida İmanquliyevanın anadan olmasının 80 illiyi münasibətilə tərtib edilmişdir.

Aida İmanquliyeva haqqında ilk biblioqrafiya AMEA-nın Mərkəzi Elmi Kitabxanası tərəfindən 2004-cü ildə (Aida Nəsir qızı İmanquliyeva: biblioqrafiya / Tərt. ed.: A.Kəngərli, İ.Səfərov; red.: A.Əsədova. – Bakı: Elm, 2004. – 118 s.), ikinci təkmilləşdirilmiş nəşri isə 2009-cu ildə "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından A.İmanquliyevanın anadan olmasının 70 illiyi münasibətilə çap olunmuşdur (Aida Nəsir qızı İmanquliyeva: biblioqrafiya / Tərt.-müəl. A.Əliyeva-Kəngərli, İ.Səfərov; red. V.Məmmədəliyev; AMEA, Mərkəzi Elmi Kitabxana. – Bakı: Elm, 2009. – 245, [3] s.).

Azərbaycan Milli Kitabxanasının yubiley münasibətilə tərtib etdiyi bu biblioqrafiyada ilk növbədə "Aida İmanquliyevanın həyat və yaradıcılığının əsas tarixləri", "Aida İmanquliyevanın əsərlərindən müdrik deyimlər", "Görkəmli şəxsiyyətlər Aida İmanquliyeva haqqında" bölmələri verilmişdir. Biblioqrafik vəsaitdə Aida İmanquliyevanın əsərləri – kitabları, dövri mətbuatda, dərsliklərdə, məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisistik məqalələri, tərcümələri, habelə alimin həyat və yaradıcılığını əks etdirən 1964-2019-cu illəri əhatə edən materiallar – kitablar, dissertasiyalar, məqalələr, rus və başqa dillərdə çap olunmuş materiallar toplanmışdır. İlk dəfə olaraq "Aida İmanquliyeva dünya kitabxanalarında" və "Aida İmanquliyeva





dünya universitet kitabxanalarında" bölmələri də tərtib edilib biblioqrafiyaya daxil edilmişdir.

Biblioqrafik göstəricidə ədəbiyyat xronoloji qaydada qruplaşdırılmış, daxildə isə əlifba sırası gözlənilmişdir.

Biblioqrafiya şərqşünaslar, ədəbiyyatşünas alimlər, tədqiqatçılar, kitabxanaçı-biblioqraflar və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstərici haqqında rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirərək, təklif və rəylərini M.F.Axundov adına Milli Kitabxanaya göndərmələrini xahiş edirik.

**Ünvan:** AZ-1000, Bakı şəh., Xaqani küç. 57.
**E-mail:** contact@anl.az.

## About the index

The bibliography compiled by Azerbaijan National Library from the series of “Remarkable people of Azerbaijan” is dedicated to the to the outstanding orientalist, the first female – Doctor of philological sciences in the field of Arabic Studies in Azerbaijan, professor, critic, translator Imanguliyeva Aida Nasir. The bibliography was prepared on the occasion of the 80th anniversary of the birth of professor Aida Imanguliyeva.

The first bibliography about Aida Imanguliyeva was published by the Central Scientific Library of ANAS in 2004 (Aida Imanguliyeva: Bibliography / Comp.: A.Kengerli, I.Safarov; ed. A.Asadova. – Baku: Science, 2004. – 118 p.), and the second improved edition of the publication – in 2009 in the series “Figures of Science and Culture of Azerbaijan” on the occasion of the 70th birthday of A. Imanguliyeva (Aida Imanguliyeva: Bibliography / comp.-author: A. Aliyeva-Kengerli, I. Safarov; ed. V.Mamedaliyev; ANAS, Central Scientific Library. – Baku: Science, 2009. - 245, [3] p.).

In this bibliography compiled by the National Library of Azerbaijan regarding professor’s anniversary, the sections “Main dates of the life and creativity of Aida Imanguliyeva”, “Wisdom sayings from the works of Aida Imanguliyeva”, “Outstanding personalities about Aida Imanguliyeva” are presented. The bibliography reflects the books of Aida Imangulieva, her works published in periodicals, textbooks, collections, scientific-critical and publicist articles, translations, and also collected materials – books, dissertations, articles reflecting the life and creativity of the scientist and covering the years from 1964 to 2019 in Russian and other languages. For the first time, the sections “Aida





Imanguliyeva in the world libraries” and “Aida Imanguliyeva in the world university libraries” were also compiled and included in the bibliography.

Materials included in the bibliography have been grouped in chronological sequences, and within the chronological sequences alphabetical order has been used.

The bibliography is intended for orientalists, literary critics, researchers, librarians-bibliographers and a wide range of readers.

We would like to express our gratitude to the specialists and readers in advance for their feedbacks and comments about the index and kindly ask you to send your comments and remarks to the address of the Azerbaijan National Library named after M.F.Akhundov.

**Address:** AZ-1000, Baku, Khagani str. 57.
**E-mail:** contact@anl.az

## Об указателе

Библиография, подготовленная Азербайджанской Национальной Библиотекой им. М.Ф.Ахундова в серии «Выдающиеся деятели Азербайджана», посвящена выдающемуся востоковеду, первой женщине-доктору филологических наук в области арабоведения в Азербайджане, профессору, критику, переводчику Аиде Насир кызы Имангулиевой. Библиография подготовлена по случаю 80-летия со дня рождения профессора Аиды Имангулиевой.

Первая библиография об Аиде Имангулиевой была опубликована Центральной Научной Библиотекой НАНА в 2004 году (Аида Насир кызы Имангулиева: Библиография / Сост.: А. Кенгели, И.Сафаров; ред. А.Асадова. - Баку: Наука, 2004. – 118 стр.), а вторая улучшенная редакция издания - в 2009 году в серии «Деятели науки и культуры Азербайджана» к 70-летию со дня рождения А.Имангулиевой (Аида Насир кызы Имангулиева: Библиография / Сост.-авт.: А.Алиева-Кенгерли, И.Сафаров; ред. В.Мамедалиев; НАНА, Центральная Научная Библиотека - Баку: Наука, 2009. – 245, [3] стр.).

В этой библиографии, составленной Национальной Библиотекой Азербайджана в связи с юбилеем профессора, представлены разделы «Основные даты жизни и творчества Аиды Имангулиевой», «Мудрые высказывания из произведений Аиды Имангулиевой», «Выдающиеся личности об Аиде Имангулиевой». В библиографии отражены книги Аиды Имангулиевой, ее труды, опубликованные в периодической печати, учебниках, сборниках, научно-критичес-





кие и публицистические статьи, переводы, а также собраны материалы - книги, диссертации, статьи, отражающие жизнь и творчество ученой и охватывающие период с 1964 по 2019 года на русском и других языках. Впервые были составлены и включены в библиографию разделы «Аида Имангулиева в мировых библиотеках» и «Аида Имангулиева в мировых университетских библиотеках».

В библиографическом указателе литература составлена по хронологическому принципу. Во внутренней же структуре соблюдается алфавитный порядок.

Библиография предназначена для востоковедов, литературоведов, исследователей, библиотекарей-библиографов и широкого круга читателей.

Заранее выражаем благодарность специалистам и читателям за пожелания и предложения. Их можно высылать по адресу Азербайджанской Национальной Библиотеки им. М.Ф.Ахундова.

**Адрес:** AZ-1000, гор. Баку, ул.Хагани, 57.
**E-mail:** contact@anl.az

**Gövhər Baxşəliyeva,**
*millət vəkili, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun direktoru, akademik*

## Şərqşünaslıq elmimizin dünya şöhrətli görkəmli nümayəndəsi

Azərbaycan şərqşünaslığı qədim və dərin tarixi köklərə bağıdır. Böyük Azərbaycan mütəfəkkirləri və alimləri Bəhmənyar, Xətib Təbrizi, Şihabəddin Sührəvərdi, Mahmud Şəbüstəri, Nizami Gəncəvi, Məhəmməd ibn Hinduşah Naxçıvani, A.Bakıxanov, M.F.Axundov, Mirzə Kazım bəy və başqaları öz qiymətli əsərləri ilə Şərq xalqlarının tarix, ədəbiyyat və fəlsəfəsinin inkişafına əvəzsiz töhfələr vermişlər. Azərbaycanda məşhur şərqşünaslar çox olmuşdur... Ərəb, fars və türk dillərinin gözəl biliciləri, bu dillərdə yazılmış möhtəşəm poeziya nümunələrinin yorulmaz tədqiqatçıları, Azərbaycanın böyük tarixçiləri, islamşünaslar, mətnşünaslar və s. Hər əsəri elmdə yeni söz, yeni tapıntı olan bu parlaq alimlər, işıqlı şəxsiyyətlər öz fundamental tədqiqatları ilə Azərbaycan şərqşünaslığının özünəməxsus simasını müəyyənləşdirib, keçmiş sovet şərqşünaslığında xüsusi "Azərbaycan məktəbi"nin mövcudluğunun etiraf olunmasını təmin etmişlər. Görkəmli şərqşünas-alim, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva həmin məktəbin inkişafında böyük xidmətləri olan, eyni zamanda keçmiş ittifaq və dünya miqyasında onu layiqincə təmsil edən nüfuzlu alimlərimizdən olmuşdur. Dərin nəzəri bilikləri, analitik təfəkkürü, geniş erudisiyası, zəngin mü-





taliəsi, bir neçə Şərq və Qərb dillərini bilməsi sayəsində apardığı tədqiqatlar və yazdığı əsərlər qısa bir vaxt ərzində ona nəinki keçmiş Sovetlər Birliyində, hətta bir çox xarici ölkələrdə geniş şöhrət gətirmişdir.

Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabrın 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1957-ci ildə Bakı şəhərinin 132 saylı orta məktəbini qızıl medalla bitirmişdir. Həmin ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) Şərqşünaslıq fakültəsinin ərəb filologiyası bölməsinə daxil olmuşdur. 1962-ci ildə universiteti bitirəndən sonra həmin universitetin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuş, daha sonra keçmiş SSRİ EA Asiya xalqları İnstitutunun aspiranturasında təhsil almışdır. 1966-cı ildə namizədlik dissertasiyasını uğurla müdafiə edən Aida İmanquliyeva Azərbaycan EA Şərqşünaslıq İnstitutunda öz məhsuldar elmi fəaliyyətinə başlamışdır.

Aida xanım elmin bütün enişli-yoxuşlu yollarını pillə-pillə keçmişdi, öz zəhməti, istedadı, zəkası, qabiliyyəti sayəsində kiçik elmi işçilikdən baş elmi işçi, şöbə müdiri, elmi işlər üzrə direktor müavini və nəhayət, Azərbaycan Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun direktoru vəzifəsinə ucalmışdı.

1989-cu ildə Aida xanım İmanquliyeva Tbilisi şəhərində müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə etmiş, filologiya elmləri doktoru elmi dərəcəsini və tezliklə bu ixtisas üzrə professor adı almışdır.

Üç monoqrafiyanın ("Mixail Nüaymə və "Qələmlər birliyi", M., 1975; "Cübran Xəlil Cübran", B., 1975; "Yeni ərəb ədəbiyyatı korifeyləri", B., 1991) və 70-dən artıq elmi məqalənin müəllifi olan A.N.İmanquliyeva Şərq filologiyası sahəsində yazılmış bir çox elmi əsərlərin redaktoru olmuşdur. Müasir Şərq ədəbiyyatının bir sıra əsərləri də Aida xanımın tərcüməsində işıq

üzü görmüşdür. O, həmçinin Azərbaycan EA Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərən “Asiya və Afrika xarici ölkə ədəbiyyatları” ixtisası üzrə müdafiə şurasına sədrlik etmişdir.

Prof. A.N.İmanquliyeva Azərbaycan şərqşünaslıq elmini dəfələrlə respublika hüdudlarından uzaqlarda (Moskva, Kiyev, Poltava, Sankt-Peterburq, Hamburq, Halle və s.) ləyaqətlə təmsil etmişdir.

Aida İmanquliyeva elmi-təşkilati fəaliyyətində yüksəkixtisaslı ərəbşünas kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlamışdır. Təsadüfi deyil ki, institutun Ərəb filologiyası şöbəsinə başçılıq etdiyi qısa müddət ərzində onun bilavasitə səyləri ilə 10-dan artıq namizədlik dissertasiyası müdafiə edilmişdir.

Aida İmanquliyeva Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin, Şərq ədəbiyyatlarının tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur.

O, uzun illər pedaqoji fəaliyyətlə də səmərəli məşğul olmuş, Azərbaycan Dövlət Universitetində ərəb filologiyası fənnindən mühazirələr oxumuşdur.

Dünya şöhrətli şərqşünaslarla bir sırada adı çəkilən Aida İmanquliyevanın tədqiqatlarının sahəsi ərəb filologiyası və ya konkret olaraq ərəb məhcər ədəbiyyatı olaraq qeyd olunur. Lakin Aida xanımın araşdırdığı məsələlər şərqşünaslığın və filoloji düşüncənin hüdudlarına sığmır. Şərq-Qərb problematikasının bədii-romantik tərənnümü Aida xanımın yaradıcılığında müstəqil fəlsəfi problem kimi qoyulur və Şərq ilə Qərb düşüncələrinin vəhdət zərurəti elmi-fəlsəfi arqumentlərlə sübuta yetirilir. Belə ki, Aida xanım tədqiq etdiyi görkəmli şəxslərin xidmətlərini göstərməklə kifayətlənməyərək, özü də Şərq-Qərb probleminin həlli istiqamətində olduqca dəyərli fikirlər irəli sürmüşdür.





Onun tədqiqatları nəticəsində bütün dövrlər üçün aktuallığını saxlayan mütləq bir həqiqət müəyyənləşmişdir: Şərqin bir çox ölkələrinin müasir inkişafı bir gerçəkliyi ortaya qoyur – Qərbin mədəni dəyərləri o zaman yerli zəmində kök sala və onu zənginləşdirə bilər ki, onlar Şərq ənənəsinə və milli xarakterə uyğun formalarda əxz edilsinlər. Alimin çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə öyrənilməsi üçün çox mühüm zəmin yaradır və metodoloji əhəmiyyət daşıyır.

Sivilizasiyalararası dialoq ideyasının siyasi, iqtisadi və kulturoloji müstəvilərdə üzə çıxması əslində elmi-fəlsəfi və ədəbi-bədii yaradıcılıqda aparılan axtarışların nəticəsi idi. Bu problem bədii yaradıcılıq müstəvisində bir sıra yazıçı-mütəfəkkirlər tərəfindən hələ XX əsrin sonunda qaldırılmışdı. Aida İmanquliyeva məhz həmin ədəbi-bədii proseslərin XX əsrin sonunda kəsb etdiyi yeni ictimai-siyasi mənanın aktuallığını nəzərə alaraq, bu problemi Azərbaycan şərqşünaslıq məktəbinin mühüm istiqamətlərindən birinə çevirdi.

Qeyd etdiyimiz kimi, Aida xanım İmanquliyevanın maraq dairəsi geniş və çoxşaxəli idi. Bununla belə, onun çoxsaylı elmi araşdırmalarının əsas tədqiqat obyekti ərəb məhcər ədəbiyyatı idi.

XIX əsrin sonlarında bir çox ərəb ölkələrinin, ilk növbədə Livanın, ictimai-siyasi və iqtisadi həyatındakı problemlər insanları vətəni tərk edib kütləvi şəkildə ABŞ-a mühacirət etməyə məcbur etdi. Livan yaradıcı ziyalılarının ABŞ-a, xüsusilə də, Nyu-York şəhərinə mühacirəti ilə ərəb məhcər ədəbiyyatının təşəkkülü başlandı, bu da son nəticədə yeni ərəb ədəbiyyatının formalaşmasında əhəmiyyətli rol oynayan xüsusi və özünəməxsus “Suriya-Amerika məktəbi”nə çevrildi. Ərəb ədəbiyyatını

fəal şəkildə əcnəbi ədəbiyyatların təcrübəsinə qoşmaq yolu ilə onu yeniləşdirmək missiyası rolu "Suriya-Amerika məktəbi"nin aparıcı nümayəndələrinin üzərinə düşdü.

Alimin çoxsaylı və gərgin araşdırmaları sayəsində aşağıdakı nəticələr əldə edilmişdir: Ərəb məhcər ədəbiyyatı nümayəndələrinin ədəbi yaradıcılığının əhəmiyyəti ondadır ki, onlar Avropa və Amerika ədəbiyyatının etik və bədii dəyərlərini yenilik ruhunda əxz etmiş, yeni formada ifadə etmiş, onların nailiyyətlərini milli ənənələrlə sintezdə təcəssüm etdirmişlər. "Suriya-Amerika məktəbi"nin ən istedadlı sənətkarları əcnəbi ədəbiyyatlardan məhz ərəb ölkələrinin ən mühüm ictimai inkişaf tələblərinə cavab verən nailiyyətləri mənimsəmişlər. Bu yazıçıların fəaliyyəti sayəsində XX əsrin əvvəllərində ərəb ədəbiyyatı regional birliklər çərçivəsində qapanıb qalmaq ənənəsini dəf edə və dünya ədəbi prosesinə fəal şəkildə qoşula bilmişdir. "Suriya-Amerika məktəbi" yazıçılarının yaradıcılığı qeyri-adi bir sintezin nümunəsi oldu – onun əlaqə dairəsinə eyni vaxtda üç ənənə: "göl məktəbi", Amerika transsendentalizmi və rus ədəbiyyatının tənqidi realizmi daxil oldu. Bunları təhlil edən tədqiqatçı yazır: "Ədəbi faktların təsviri, müqayisəli təhlili və öyrənilməsi yeni ərəb ədəbiyyatının formalaşmasına dair təsəvvürləri nəinki genişləndirdi, həm də Şərqin yeni ədəbiyyatının tarixi inkişafının mürəkkəb və ziddiyyətli formalarının tipoloji baxımdan həqiqi mənzərəsini canlandırdı. "Suriya-Amerika məktəbi"nin adı çəkilən üç cərəyanla təmasının nəticəsi burada müəyyən bədii metodların formalaşması oldu: "göl məktəbi" və transsendentalizm Cübran və ər-Reyhaninin yaradıcılığında romantik metodun təşəkkül tapmasına səbəb oldusa, rus ədəbiyyatı ilə əlaqə və ünsiyyət realist Nüaynəni formalaşdırdı".

Tədqiqatçı məhcər ədəbiyyatı yaradıcılarının ədəbi-bədii üslubunun bütün incəliklərini tədqiqat obyektinə çevirir: "Mühacir yazıçılar yeni ədəbi üslubun yaradıcıları idilər. Onlar mümkün qədər bu üslubu arxaizmlərdən, ağır sintaktik quruluşlardan, müxtəlif növ süni bəzək yığınından azad etmişlər. Bununla bərabər, onlar ərəb klassik ədəbiyyatının ənənə və dəyərlərinə sayğılı münasibət nümayiş etdirmişlər".





Alim ərəb məhcər ədəbiyyatının ən müxtəlif bədii üsluba malik nümayəndələrinin yaradıcılığını araşdırdı: Nuaymə yaradıcılığında rus ədəbiyyatının təsiri ilə formalaşan tənqidi realizmi öyrəndi, Cübran yaradıcılığında ingilis poeziyasının təsiri ilə romantik üslubunun inkişaf prosesini izlədi, Amerika transsendentalistlərinin Əmin ər-Reyhani və digərlərinin yaradıcılığında oynadığı rolu müəyyənləşdirdi. Bu zaman o, yüzlərlə ədəbiyyat oxuyur, yazıçıların ən məşhur əsərlərini təhlil edir, onların yaradıcılıq metodunu, dünyagörüşünü, nəsr və poeziya dillərinin təkamülünü, lirizmi, müxtəlif qəhrəman obrazlarının xüsusiyyətlərini tədqiq edir, dünya ərəbşünaslığında ilk dəfə olaraq ərəb-Amerika, Qərbi Avropa və rus ədəbi əlaqələrinin məğzi və əhəmiyyətini tam aşkar edir, ərəb məhcər ədəbiyyatının ən görkəmli nümayəndələrinin bədii üslubunun formalaşmasında Qərb və rus ədəbiyyatlarından mənimsəmə prosesi və onun nəticələrini müəyyənləşdirir.

Alimin gəldiyi qənaətə görə, ədəbi inkişaf prosesi gedişində maarifçi didaktizm, sentimentalizm cizgiləri qeyd olunan ərəb yazıçıları tərəfindən aradan qaldırılmış, romantizmin və tənqidi realizmin poetikası mənimsənilmişdir. Beləcə onlar içərisində olduqları tarixi gerçəkliyi əks etdirmək üçün çox zəruri olan yeni ideya və yeni formaları özündə daşıyan Qərb mədəniyyəti və ədəbiyyatının nailiyyətlərindən yaradıcı surətdə faydalanmışlar.

Bu yazıçıların hər biri öz yaradıcılıq metoduna xas olan etik və bədii dəyərlər ehtiyatını işə salaraq, onu özünəməxsus şəkildə

bədii təcrübədən keçirmişdir. Cübran və ər-Reyhani Qərb romantizminə müraciət etmişlər. Lakin ərəb romantik şairlərindən fərqli olaraq, bu yazıçılar yalnız onun zahiri xüsusiyyətlərini mexaniki şəkildə qəbul etməmiş, romantizmi yaradıcı metod kimi, yəni onlara ərəb gerçəkliyinə öz münasibətlərini ifadə etmək imkanı verən yeni nəzər nöqtəsi kimi mənimsəmişlər. Onlar ilk olaraq maarifçiliyin artıq daralmış çərçivəsini qırıb romantizm cəbhəsinə keçmişlər. Cübranın və ər-Reyhaninin yaradıcılığında romantik istiqamət nəinki mənimsənilmiş, həm də zənginləşmiş və mürəkkəbləşmişdir. Bu, bir tərəfdən ərəb ədəbiyyatının xüsusi ənənələri ilə Qərb romantizmi təcrübəsinin mürəkkəb sintezi nəticəsində, digər tərəfdən hər iki sənətkarın fərdi istedadı sayəsində baş vermişdir. Beləcə, onlar ümumbəşəri problemlərin qoyuluşu səviyyəsinə yüksəlmiş və dünya ədəbi prosesinin nəinki bərabərhüquqlu iştirakçısı olmaq, həm də yeni bədii dəyərlərin dünya ədəbiyyatına ötürücüsü kimi çıxış etmək imkanı qazanmışlar.

Professor Aida İmanquliyeva təkcə ərəb mühacir şairlərinin romantikasını araşdırmaqla kifayətlənməmiş, onları Qərb romantik poeziyasının görkəmli nümayəndələri ilə müqayisəli surətdə təhlil etmişdir. Lakin tədqiqatını bununla da məhdudlaşdırmayaraq, bütövlükdə romantik poeziyanı ədəbiyyatda yeni ruhlu bir hadisə kimi nəzərdən keçirmiş və bu konteksdə ədəbi-bədii metodlar və onların mahiyyəti haqqında olduqca dəyərli fikirlər irəli sürmüşdür.

A.İmanquliyeva araşdırmalarının sonunda belə bir müddəa irəli sürür ki, ərəb ədəbiyyatı xarici ədəbiyyatların nailiyyətlərindən faydalanmasında ilk növbədə məhcər ədəbiyyatı nümayəndələrinə borcludur. Məhcər yazıçıları Qərb ədəbiyyatının pozitiv təsiri orbitində olaraq, onun ən yaxşı nailiyyətlərini mənimsəmiş və özlərinə məxsus şəkildə inkişaf etdirmişlər. Öz əsərlərində





milli ruhu və milli koloriti qoruyub saxlaya bilən bu yazıçılar yeni ərəb ədəbiyyatının inkişafında əvəzsiz rol oynamışlar. Məhz onların yaradıcılığı sayəsində XX əsr ərəb ədəbiyyatının mövzu dairəsi genişlənmiş, janr tərkibi daha da rəngarəng olmuş, bədii ifadənin yeni formaları yaranmış və ərəb ədəbiyyatı ümumbəşər mədəniyyətinin ayrılmaz hissəsinə çevrilmişdir.

Aida xanımla 15 il birgə çalışan bir insan kimi bir məsələni də xüsusi vurğulamaq istəyirəm. Ulu Tanrı Aida xanımı yaradarkən, çox səxavətli olmuş, ona yüksək şəxsi və intellektual keyfiyyətlərlə yanaşı, qibtədoğuran bir zahiri gözəllik də bəxş etmişdi. Onun gözəlliyini vəsf etmək üçün bəlkə də Füzuli qələmi, Vaqif təbi, Ələsgər sözü gərəkdir. Çünki bu zahiri gözəllik onun daxili aləmi, zəngin mənəvi dünyası, incə ruhu və həssas qəlbi ilə tam bir harmoniya təşkil edirdi…

Bu günlərdə görkəmli şərqşünas-alim, elm təşkilatçısı, pedaqoq, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın yubileyidir. Çox təəssüf ki, onun ömür yolu qısa oldu. Amma onsuz ötən illər bir həqiqəti də ortaya qoydu: Aida xanım bizdən yalnız cismən ayrılıb – adı dillərdən düşmür, xatirəsi ürəklərdən silinmir. Əsərləri dönə-dönə oxunulur, təhlil və tədqiq edilir, tərcümə olunur, yenidən işıq üzü görür. Nə qədər ki, onun alim qələmi ilə uğrunda mübarizə apardığı ideya və amallar aktuallığını itirməyib, nə qədər ki, Şərq və Qərb münasibətlərində tam anlaşma bərqərar olmayıb, insanlar dönə-dönə Aida İmanquliyevanın əsərlərinə müraciət edəcək və gələcək nəsillər onu daim minnətdarlıqla xatırlayacaqlar.

## Aida İmanquliyevanın həyat və yaradıcılığının əsas tarixləri

***Görkəmli şərqşünas, ədəbiyyatşünas, tənqidçi, tərcüməçi, filologiya elmləri doktoru Aida Nəsir qızı İmanquliyeva 1939-cu il oktyabr ayının 10-da Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur.***

**1947** – Bakıda 132 saylı orta məktəbin birinci sinfinə getmişdir.

**1957** – Bakıda 132 saylı orta məktəbi qızıl medalla bitirmişdir.

**1957-1961** – S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) şərqşünaslıq fakültəsinin ərəb dili şöbəsində təhsil almış və bu fakültəni fərqlənmə diplomu ilə bitirmişdir.

**1962** – S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin Yaxın Şərq xalqları ədəbiyyatı tarixi kafedrasında aspiranturaya qəbul olunmuşdur.

**1964** – “Mixail Nüaymə və XIX əsr qabaqcıl rus ədəbiyyatı” adlı ilk mətbu məqaləsi “Azərbaycan” jurnalında dərc olunmuşdur.





**1966** – Moskvada SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda ərəb filologiyası üzrə aspiraturanı bitirmişdir.
– “Qələmlər birliyi və Mixail Nüaymə” adlı namizədlik dissertasiyasını müdafiə edərək filologiya elmləri namizədi elmi adını almışdır.

**1966-1976** – Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda kiçik elmi işçi, daha sonra baş elmi işçi vəzifəsində çalışmışdır.

**1971-1973** – Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi “Ərəb filologiyası məsələləri” məcmuəsinin tərtibçisi olmuşdur.

**1973-1992** – Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakültəsində ərəb ədəbiyyatı tarixindən dərs demiş, dissertasiya və diplom işlərinə rəhbərlik etmişdir.

**1974** – Filologiya elmləri namizədi M.Qarayevlə birlikdə “İnsan və quş” adlı hekayələr məcmuəsini tərcümə edərək çap etdirmişdir.

**1975** – Bakıda “Cübran Xəlil Cübran (həyat və yaradıcılığı)” adlı kitabı “Elm” nəşriyyatında çap olunmuşdur;
– Moskvanın “Наука” (Elm) nəşriyyatında “Qələmlər birliyi və Mixail Nüaymə” adlı kitabı nəşr olunmuşdur.

**1976-1988** – Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda Ərəb filologiyası şöbəsinin müdiri vəzifəsində işləmişdir.

**1979-1981** – Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun nəşr etdirdiyi "Ərəb filologiyası məsələləri" məcmuəsinin redaktoru vəzifəsində çalışmışdır.

**1979** – Livan yazıçısı M.Nüaymənin bir neçə hekayəsini ərəb dilindən rus dilinə tərcümə edərək Moskvada "Vostoçnı almanax" jurnalında çap etdirmişdir.

**1981** – Azərbaycan Yazıçılar İttifaqının (indiki Azərbaycan Yazıçılar Birliyi) üzvlüyünə qəbul edilmişdir.

**1983** – Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Azərbaycan bölməsi sədrinin müavini olmuşdur;
– Moskva şəhərində görkəmli şərqşünas-alim, akademik İ.Y.Kraçkovskinin anadan olmasının 100 illiyinə həsr olunmuş elmi konfransda çıxış etmişdir;
– Bakı şəhərində keçirilən Şərqşünasların II Ümumittifaq konfransında "Ərəb-məhcər ədəbiyyatının əsas istiqamətləri" mövzusunda məruzə ilə çıxış etmişdir.

**1987** – Ümumittifaq Şərqşünaslar Cəmiyyəti Rəyasət Heyətinin üzvü seçilmişdir;
– Almaniyanın Qall şəhərində dünya şərqşünaslarının II simpoziumunda geniş məruzə ilə çıxış etmişdir.

**1988** – Tbilisi şəhərində "Yeni ərəb ədəbiyyatının formalaşmasında ədəbi əlaqələrin rolu" adlı doktorluq dissertasiyasını müdafiə edərək filologiya elmləri doktoru elmi adını almışdır.





**1988-1991** – Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır.

**1989** – Poltava şəhərində Mixail Nüaymənin 100 illiyinə həsr olunmuş elmi konfransda əsas məruzə ilə çıxış etmişdir.

**1991** – Mart ayında SSRİ Nazirlər Soveti yanında fəaliyyət göstərən Ali Attestasiya Komissiyasının qərarı ilə ona Xarici Asiya və Afrika xalqları ədəbiyyatı ixtisası üzrə professor elmi rütbəsi verilmişdir.

**1991-1992** – Azərbaycan Elmlər Akademiyasının Yaxın və Orta Şərq Xalqları İnstitutunda direktor vəzifəsində çalışmışdır.

**1992** – May ayında Bakıda keçirilən Ümumittifaq şərqşünaslarının II konfransında məruzə ilə çıxış etmişdir;
– Sentyabr ayının 19-da Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

**1999** – Anadan olmasının 60 illik yubileyi qeyd edilmişdir;
– 60 illiyi münasibətilə elmi sessiya keçirilmişdir.

**2002** – "Elm" nəşriyyatında "Cübran Xəlil Cübran" monoqrafiyası və "Qələmlər birliyi" və Mixail

Nüaymə" ali məktəblər üçün dərs vəsaiti çapdan çıxmışdır;
– Nərgiz Paşayevanın A.İmanquliyevaya həsr etdiyi "Dünya deyilən sənmişsən..." fotoalbomu işıq üzü görmüşdür.

**2004** – Anadan olmasının 65 illik yubileyi keçirilmişdir.
– 65 illik yubileyi münasibətilə Bakıda "Şərq-Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr" adlı beynəlxalq elmi konfrans təşkil olunmuşdur;
– Oktyabr ayının 10-da 65 illiyinə həsr olunmuş, "Sinema-Lümyer-klub"un istehsalı olan "Ayın kölgəsi" adlı sənədli filmin təqdimatı keçirilmişdir (rejissor Gülbəniz Əzimzadə, ssenari müəllifi Nərgiz Paşayeva, prodüser Tamerlan Şalbarov, operatorlar Elşən Əliyev və Əli Kərimov).

**2006** – Heydər Əliyev Fondunda görkəmli şərqşünas alim Aida İmanquliyevanın "Yeni ərəb ədəbiyyatının korifeyləri" kitabının təqdimatında Fondun prezidenti Mehriban Əliyeva çıxış etmişdir.

**2007** – "Yeni ərəb ədəbiyyatı korifeyləri" kitabı "Modern arap edebiyatının usta kalemleri" adı ilə İstanbulda türk dilində çapdan çıxmışdır.

**2008** – Oksford Universitetinin "İbn Arabi" Cəmiyyətində xatirəsinə həsr olunmuş tədbir keçirilmişdir.

**2009** – Anadan olmasının 70 illik yubileyi qeyd olunmuşdur;





– 70 illik yubileyi münasibətilə "Şərqşünaslığın aktual problemləri" mövzusunda respublika elmi konfransı keçirilmişdir;
– 9-11 oktyabr tarixlərində Bakıda 70 illik yubileyinə həsr olunmuş "Şərq və Qərb: ortaq mənəvi dəyərlər elmi-mədəni əlaqələr" mövzusunda Beynəlxalq İbnül-Ərəbi Simpoziumu təşkil olunmuşdur;
– AMEA-nın müxbir üzvü Səlahəddin Xəlilovun "Şərq ruhunun Qərb həyatı. Aida İmanquliyevanın yaradıcılıq axtarışlarının izi ilə" kitabı çapdan çıxmışdır;
– Gəncə şəhərində xatirə muzeyi yaradılmışdır.

**2010** – 70 illik yubileyinə həsr olunmuş "Ərəb filologiyası sahəsində gənc alimlərin ən yaxşı elmi-tədqiqat əsəri" adlı müsabiqə keçirilmişdir.

**2011** – "Seçilmiş məqalələr"i Ukrayna dilində işıq üzü görmüşdür.

**2012** – Belarus dilinə tərcümə edilmiş "Məqalələr, tərcümələr" kitabı Kişinyovda çapdan çıxmışdır.

**2014** – 10-11 oktyabr tarixlərində 75 illik yubileyinə həsr olunmuş "Şərq xalqları ədəbiyyatı: Ənənə və müasirlik" mövzusunda respublika elmi konfransı keçirilmişdir.

**2015** – Beynəlxalq Mətbuat Mərkəzində "İslam mədəniyyətinin modernləşməsində Aida İmanquliyeva imzası" mövzusunda konfrans keçirilmişdir.

**2016** – 132-134 nömrəli Təhsil Kompleksi tərəfindən "Məşhur məzunlar" layihəsinin əsasında hazırlan-

mış "Unudulmaz məzun – Aida İmanquliyeva" (1947-1957)" adlı kitab nəşr edilmişdir.

**2018** – İctimai Televiziyada Eldar İsgəndərzadənin ssenarisi əsasında rejissor Vasif Məmmədzadənin quruluş verdiyi "Aida İmanquliyeva" sənədli-bədii televiziya filmi istehsal edilmişdir.

**2019** – Anadan olmasının 80 illik yubileyidir.
– Azərbaycan Dillər Universiteti tərəfindən "Aida İmanquliyeva və Şərq-Qərb əlaqələrinin multikultural tədqiqi" adlı məqalələr toplusu çap olunmuşdur;
– 80 illik yubileyi münasibətilə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasında "Azərbaycan şərqşünaslıq elminin əbədiyaşar siması. Aida İmanquliyeva – 80" adlı metodik tövsiyələr hazırlanıb nəşr edilərək respublikanın bütün kitabxanalarına göndərilmişdir;
– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından "Aida İmanquliyeva. Biblioqrafiya" kitabını nəşr etmişdir;
– M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası tərəfindən "Aida İmanquliyeva" Elektron Məlumat Bazası hazırlanıb İnternetdə yerləşdirilmişdir;
– Anadan olmasının 80 illik yubileyi münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanası mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün "Elmin parlaq ulduzu – Aida İmanquliyeva" adlı metodik vəsait tərtib etmişdir.





## Main dates of the life and creativity of Aida Imanguliyeva

***Prominent orientalist, literary critic, translator, Doctor of philological sciences, professor Imanguliyeva Aida Nasir was born on October 10, 1939 into an intelligent family in Baku.***

**1947** – Entered the first class of secondary school № 132 in Baku.

**1957** – Graduated from secondary school № 132 in Baku with a gold medal

**1957-1961** – Studied at the Arabic Department of the Faculty of Oriental Studies of the Azerbaijan State University named after S.M. Kirov (now Baku State University) and graduated this faculty with honors diploma.

**1962** – Accepted into postgraduate study at the department History of Literature of the Peoples of the Middle East of the faculty of Oriental Studies of Baku State University.

**1964** – Her first press article, "Mikhail Nuayme and the leading Russian literature of the 19th century," was published in the journal "Azerbaijan".

**1966** – Graduated from postgraduate study on Arabic philology at the Institute of Oriental Studies of

the USSR Academy of Sciences in Moscow;
– After defending candidate dissertation on the topic “The Pen League and Michail Nuayme”, she received the scientific degree of candidate of philological sciences.

**1966-1976** – Began working as a junior research fellow, and then a senior fellow at the Institute of Oriental Studies of the Azerbaijan Academy of Sciences.

**1971-1973** – She was the compiler of the collection “Issues of Arabic Philology” published by the Institute of Oriental Studies of the Azerbaijan Academy of Sciences.

**1973-1992** – Taught the history of Arabic literature at the Faculty of Oriental Studies of Azerbaijan State University, led dissertations and graduation works.

**1974** – Translated and published the collection of stories “Man and the Bird” together with the candidate of philological sciences M. Garayev.

**1975** – Her book “Gubran Khalil Gubran (life and creativity)” was published at the publishing house “Science” in Baku;
– Her book “Michail Nuayme and the Pen League” was published at the publishing house” Science” in Moscow.

**1976-1988** – Worked as the head of the department of Arab philology of the Institute of Oriental Studies of the Azerbaijan Academy of Sciences.





**1979-1981** – Worked as an editor of the collection “Issues of Arabic Philology” published by the Institute of Oriental Studies of the Azerbaijan Academy of Sciences.

**1979** – Translated several stories of the Lebanese writer M. Nuayme from Arabic into Russian and published them in the journal “Eastern Almanac” in Moscow.

**1981** – Accepted as a member of the Union Azerbaijani Writers.

**1983** – Elected Deputy Chairman of the Azerbaijan Branch of the All-Union Society of Orientalists;
– Made a speech at the scientific conference dedicated to the 100$^{th}$ anniversary of the outstanding scientist-orientalist, academician I.Y. Krachkovsky in Moscow;
– Made a report at the II All-Union Conference of Orientalists on the theme “The main directions of Arab-emigration literature” held in Baku.

**1987** – Elected as a member of the Presidium of the All-Union Society of Orientalists;
– Made a report at the II Symposium of Orientalists of the World in Halle, Germany.

**1988** – Having successfully defended doctoral dissertation on the theme “The role of literary relations in the formation of new Arabic literature” in Tbilisi, she received the scientific degree of doctor of philological sciences.

**1988-1991** – Worked as deputy director for scientific affairs at the Institute of Oriental Studies of the Azerbaijan Academy of Sciences.

**1989** – Made a keynote speech at the scientific conference dedicated to the 100$^{th}$ anniversary of Michail Nuayme in Poltava.

**1991** – In March, by a decision of the Higher Attestation Commission under the Council of Ministers of the USSR, she was awarded the title of professor in the specialty Foreign Literature of the Peoples of Asia and Africa.

**1991-1992** – Worked as director of the Institute of Oriental Studies of the Academy of Sciences of Azerbaijan.

**1992** – Made a speech at the II conference of the All-Union Orientalists, held in May in Baku;
– Died on September 19 and was buried on the Alley of Honor in Baku.

**1999** – 60$^{th}$ anniversary of birth was celebrated;
– The scientific session dedicated to the 60$^{th}$ anniversary of the birth of Aida Imanguliyeva was held.

**2002** – The printing house "Science" published the monograph "Michael Nuayme and the Pen League" and the textbook "Gubran Khalil Gubran" for universities;





– The photo album "The world is you ..." by Nargiz Pashayeva dedicated to A. Imangulieva was published.

**2004** – 65$^{th}$ anniversary of birth was celebrated;
– An international scientific conference "East-West: Common Spiritual Values, Scientific and Cultural Relations" dedicated to the 65$^{th}$ birthday of Aida Imanguliyeva was held in Baku;
– On October 10, the presentation of the documentary film "Shadow of the Moon" from the Cinema-Lumiere Club was held, dedicated to the 65$^{th}$ birthday of Aida Imangulieva (director Gulbeniz Azimzade, scenarist Nargiz Pashayeva, producer Tamerlan Shalbarov, cameramen Elshan Aliyev and Ali Kerimov).

**2006** – President of the Heydar Aliyev Foundation Mehriban Aliyeva made a speech at the presentation of the book "Coryphaeus of New Arabic Literature" of the renowned oriental scientist A. Imanguliyeva.

**2007** – The book "Coryphaeus of New Arabic Literature" was published in Istanbul in Turkish.

**2008** – An event devoted to her memory was held at the "Ibn Arabi" Society of Oxford University.

**2009** – 70$^{th}$ anniversary of birth was celebrated;
– The republican scientific conference "Actual Problems of Oriental Studies" dedicated to the

70th anniversary of the birth of Aida Imanguliyeva was held;

– The International Symposium "Ibnul Arabi" on the theme "East and West: common spiritual values, scientific and cultural relations" was held on October 9-11in Baku;
– The book "Western life of the eastern spirit. In the footsteps of Aida Imanguliyeva's creative searches" of correspondent member of ANAS Selahaddin Khalilov was published;
– A memorial museum was established in Ganja.

**2010** – The competition "The best scientific research work of young scientists in the field of Arabic philology" dedicated to the 70th anniversary of birth was held.

**2011** – "Selected Articles" were published in Ukrainian.

**2012** – The book "Articles, translations" was published in Chisinau in the Belarusian language.

**2014** – The republican scientific conference "Literature of the Eastern People: traditions and modernity", dedicated to the 75th anniversary of birth was held on October 10-11.

**2015** – The conference "The role of Aida Imanguliyeva in the modernization of Islamic culture" was held at the International Press Center.





**2016** – The book "An unforgettable graduate – Aida Imanguliyeva (1947-1957)" was published by educational complex № 132-134 on the basis of the project "Famous graduates".

**2018** – The director Vasif Mammadzadeh made a documentary and feature television film "Aida Imanguliyeva" based on the script of Eldar Iskenderzade.

**2019** – 80th anniversary of birth are celebrated;
– Azerbaijan University of Languages published a collection of articles "Aida Imanguliyeva and multicultural study of east-west relations";
– On the occasion of the 80th anniversary of the birth of Aida Imanguliyeva, the National Library of Azerbaijan prepared, published a methodical recommendations, "The Eternally Alive Coryphaeus of Azerbaijan Oriental Studies – Aida Imanguliyeva" and sent it to all libraries of the republic;
– Azerbaijan National Library named after M.F. Akhundov published the fundamental bibliographic index "Aida Imanguliyeva: Bibliography" from the series "Remarkable people of Azerbaijan";
– Azerbaijan National Library named after M.F. Akhundov prepared and placed "Aida Imanguliyeva" Electronic Database on the Internet;
– On the occasion of the 80th anniversary of the birth of Aida Imanguliyeva, the Republican Children Library named after F. Kocharli prepared the methodical manual "The Bright star of science - Aida Imanguliyeva".

## Основные даты жизни и творчества Аиды Имангулиевой

***Видный востоковед, литературовед, критик, переводчик, доктор филологических наук, профессор Аида Насир кызы Имангулиева родилась 10 октября 1939 года в интеллигентной семье в г. Баку.***

**1947** – Поступила в первый класс средней школы № 132 г. Баку.

**1957** – Окончила среднюю школу № 132 города Баку с золотой медалью.

**1957-1961** – Получив высшее образование в отделении арабской филологии факультета Востоковедения Азербайджанского Государственного Университета им. С.М.Кирова (ныне Бакинский Государственный Университет) с отличием окончила этот факультет.

**1962** – Стала аспирантом кафедры «История литературы народов Ближного Востока» факультета Востоковедения Бакинского Государственного Университета.

**1964** – В журнале «Азербайджан» была опубликована ее первая пресс-статья «Михаил Нуайме и передовая русская литература XIX века».





**1966** – Окончила аспирантуру по арабской филологии в Институте Востоковедения Академии Наук СССР в г. Москве;
– После защиты кандидатской диссертации по теме «Ассоциация пера и ее роль в творчестве Михаил Нуайме» получила ученую степень кандидата филологических наук.

**1966-1976** – Начала работать младшим научным сотрудником, а затем старшим научным сотрудником в Институте Востоковедения Академии Наук Азербайджана.

**1971-1973** – Была составителем сборника «Вопросы арабской филологии», изданного Институтом Востоковедения Академии Наук Азербайджана.

**1973-1992** – Преподавала историю арабской литературы в факультете Востоковедения Азербайджанского Государственного Университета, руководила диссертационными и дипломными работами.

**1974** – Перевела и опубликовала сборник рассказов «Человек и птица» вместе с кандидатом филологических наук М.Гараевым.

**1975** – Опубликована книга «Джебран Халиль Джебран (жизнь и творчество)» в издательстве «Наука» в г. Баку;
– Опубликована книга «Михаил Нуайме и «Ассоциация пера» в издательстве «Наука» в г. Москва.

**1976-1988** – Работала заведующей отделом Арабской филологии Института Востоковедения Академии Наук Азербайджана

**1979-1981** – Работала редактором сборника «Вопросы арабской филологии», изданного Институтом Востоковедения Академии Наук Азербайджана.

**1979** – Перевела несколько рассказов ливанского писателя М.Нуайме с арабского на русский язык и опубликовала их в журнале «Восточный альманах» в г. Москва

**1981** – Стала членом Союза Писателей Азербайджана.

**1983** – Избрана заместителем председателя Азербайджанского отделения Всесоюзного Общества Востоковедов;
– Выступила на научной конференции, посвященной 100-летию со дня рождения выдающегося ученого-востоковеда, академика И.Ю.Крачковского в г. Москва;
– Выступила с докладом на II Всесоюзной конференции Востоковедов на тему «Основные направления арабо-эммиграционной литературы», прошедшей в г. Баку.

**1987** – Избрана членом Президиума Всесоюзного Общества Востоковедов;
– Выступила с докладом на II Симпозиуме Востоковедов Мира в г. Галле, Германия.





**1988** – Удачно защитив докторскую диссертацию на тему «Роль литературных отношений в формировании новой арабской литературы» в Тбилиси, получила ученую степень доктора филологических наук

**1988–1991** – Работала заместителем директора по науке в Институте Востоковедения Академии Наук Азербайджана.

**1989** – Выступила с основным докладом на научной конференции, посвященной 100-летию Михаила Нуайме в г. Полтаве.

**1991** – В марте решением Высшей Аттестационной Комиссии при Совете Министров СССР ей было присвоено звание профессора по специальности Зарубежная Литература Народов Азии и Африки.

**1991-1992** – Работала директором Института Востоковедения Академии Наук Азербайджана.

**1992** – Выступила на II конференции Всесоюзных Востоковедов, прошедшей в мае в г. Баку;
– Скончалась 19 сентября и была похоронена на Аллее Почетного Захоронения в г. Баку.

**1999** – Было отмечено 60-летие со дня ее рождения;
– Состоялась научная сессия, посвященная 60-летию со дня рождения Аиды Имангулиевой.

**2002** – Опубликованы издательством «Наука» монография «Михаил Нуайме и Ассоциация пера» и учебник «Джебран Халиль Джебран» для вузов;
– Был издан Наргиз Пашаевой фотоальбом «Мир есть ты...», посвященный А. Имангулиевой.

**2004** – Был отмечен 65-летный юбилей со дня ее рождения;
– В Баку состоялась международная научная конференция «Восток-Запад: общие духовные ценности, научные и культурные связи», посвященная 65-летию со дня рождения Аиды Имангулиевой;
– 10 октября состоялась презентация документального фильма «Тень луны» от Синема-Люмьер-клуба, посвященный 65-летию со дня рождения Аиды Имангулиевой (режиссер Гюльбениз Азимзаде, сценарист Наргиз Пашаева, продюсер Тамерлан Шалбаров, операторы Эльшан Алиев и Али Керимов).

**2006** – Президент Фонда Гейдара Алиева Мехрибан ханум Алиева выступила на презентации книги известного ученого-востоковеда А.Имангулиевой «Корифеи новоарабской литературы».

**2007** – Книга «Корифеи новоарабской литературы» была издана в Стамбуле на турецком языке.





**2008** – Состоялось мероприятие, посвященное ее памяти, в Обществе «Ибн Араби» Оксфордского Университета.

**2009** - Было отмечено 70-летие со дня ее рождения;
- Состоялась республиканская научная конференция «Актуальные проблемы востоковедения», посвященная 70-летию со дня рождения Аиды Имангулиевой;
– 9-11 октября в Баку состоялся Международный Симпозиум «Ибнуль Араби» на тему «Восток и Запад: общие духовные ценности, научные и культурные связи»;
– Была опубликована книга «Западная жизнь восточного духа. По следам творческого поиска Аиды Имангулиевой» член-корреспондента НАНА Селахаддина Халилова;
– В Гяндже был основан мемориальный музей.

**2010** – Состоялся конкурс «Лучшая научно-исследовательская работа молодых ученых в области арабской филологии», посвященный 70-летию со дня ее рождения.

**2011** – «Избранные статьи» были опубликованы на украинском языке.

**2012** – Книга «Статьи, переводы» была опубликована в Кишиневе на белорусском языке.

**2014** – 10-11 октября состоялась республиканская научная конференция на тему «Литература

Восточного народа: традиции и современность», посвященная 75-летию со дня ее рождения.

**2015** – В Международном пресс-центре состоялась конференция «Роль Аиды Имангулиевой в модернизации исламской культуры».

**2016** – Книга «Незабываемая выпускница – Аида Имангулиева (1947-1957)» была издана образовательным комплексом № 132-134 на основе проекта «Знаменитые выпускники».

**2018** – Был снят режиссером Васифом Мамедзаде документальный и художественный телевизионный фильм «Аида Имангулиева» на основе сценария Эльдара Искендерзаде.

**2019** – Отмечается 80-летие со дня ее рождения.
– Азербайджанским Университетом Языков был издан сборник статей «Аида Имангулиева и мультикультурное исследование восточно-западных отношений»;
– В связи с 80-летием со дня рождения Аиды Имангулиевой, Национальной Библиотекой Азербайджана была подготовлено, издано методическое пособие «Вечно живой корифей Азербайджанской Востоковедческой науки – Аида Имангулиева» и разослано всем библиотекам республики;
– Национальная Библиотека Азербайджана им. М.Ф.Ахундова издавала фундаментальный библиографический указатель «Аида





Имангулиева: Библиография» из серии «Выдающиеся личности Азербайджана»;
– Национальной Библиотекой Азербайджана была подготовлено Электронная база данных на тему «Аида Имангулиева – 80» и размещена в интернете;
– В связи с 80-летием со дня рождения Аиды Имангулиевой, Республиканская Детская Библиотека имени Ф.Кочарли подготовила методическое пособие «Яркая звезда науки – Аида Имангулиева».

## Aida İmanquliyevanın əsərlərindən müdrik deyimlər

*Təbiət kimi, insan da gözəlliklə dolub-daşır.*

*Şərqdə həyatın təkmilləşməsi üçün yalnız hissi aləm və fəlsəfi idrakın dərinliyi bəs olmadığı kimi, hələ mədəni nailiyyətlər və texniki tərəqqi də insanın mənəvi və sosial dirçəlişi üçün kifayət deyil.*

*Ədəbiyyat yazıçı ilə oxucu arasında mənəvi vasitəçi olmalıdır. O, insan qəlbinin sirlərini və dərinliklərini öyrənməli, "söz hoqqabazlığı və şeir dekoru sərgisinə" çevrilməməlidir.*

*Dünyanın dərki, əslində qəlbin dərinliklərindəki gizli qatların oyanışı sayəsində mümkün olur.*

*Cəmiyyətin inkişafını qadınlarsız, elmin, texnikanın, mədəniyyətin tərəqqisini, bir çox mühüm ictimai problemlərin həllini qadınların iştirakı olmadan təsəvvür etmək mümkün deyildir.*

*Müxtəlif ədəbiyyatlara məxsus yazıçıların əsərlərindəki aktual, vaxtı çatmış məsələlərin ümumiliyi bir tərəfdən cəmiyyətin tarixi inkişafından doğursa, zamanın problemləridirsə, o biri tərəfdən, ümumiyyətlə, ədəbi tərəqqinin qanunauyğunluqlarının ifadəsi olan beynəlmiləl ədəbi təsirin nəticəsidir.*





*Ədəbi əlaqələrin tarixi xalqların tarixi ilə qırılmaz surətdə bağlıdır.*

*Ədəbi əlaqələr dinamik prosesdir.*

*Cübran hansı məsələdən danışırsa-danışsın, o həmişə mütəfəkkir, böyük sənətkar, söz ustası və öz xalqını, bütün bəşəriyyəti hədsiz dərəcədə sevən bir insan olaraq qalır.*

*Tərcümə yalnız göstərilən məqsədlər üçün deyil, o, eyni zamanda qarşılıqlı faydalanma, qarşılıqlı öyrənmə üçün ən yaxşı vasitələrdən biridir.*

*Qaranlıq və soyuq qışdan sonra təbiətin dirçəlişinin, ılıq baharın gəlişinin rəmzi olan Novruz bayramı qədim dövrlərdən Şərq xalqlarına yadigar qalan ən nəcib, xoş əhval-ruhiyyəli, sevimli bayramlardan biridir. Bahar bayramı xeyirxah hisslərin, insani duyğuların, mərdliyin və dostluğun tərənnümü bayramıdır: ruzi bayramı, əmək bayramıdır; Novruz təmizlik, saflıq, gözəllik bayramıdır.*

*Hər bir cəmiyyətin, quruluşun gələcəyini həyata yeni atılan, böyüyən və yetkinləşən nəsil təşkil edir. Bu nəsli yetişdirən isə ilk növbədə ailədir.*

*Mən hər dəfə suya daş atanda, o, əmələ gələn dairələrin ortasına düşür. Bu idiomanı belə açıqlamaq olar: Nə edirəmsə-edim, həmişə hədəfə dəyirəm.*

*Məhəbbət və gözəllik elə mənəvi işıqdır ki, qəlbi nurlandırır.*

*Gözəllik adlı-sanlı və zəngin insanların imtiyazı deyil, o, bütün insanlığın müqəddəs mülkiyyətidir.*

*Tənqidçinin vəzifəsi zövqü inkişaf etdirməkdir. Bununla da əsl tənqidçi cəmiyyətin tərbiyəçisi və müəllimi olur.*

*Gündəlik qayğı ilə yaşayan insanlar çox zaman gözəlliyin yanından ötüb keçirlər, şairin borcu onların diqqətini gözəlliyə yönəltməkdir.*

*Romantik şair ağlı intuisiya ilə, hisslə birləşdirir, ...dünyanı ilhamla, "bədii şəkildə" mənimsəyir.*

*Romantiklərdə gözəllik və məhəbbət şairin ürəyini və təxəyyülünü işıqlandıran mənəviyyat nurudur.*

*Romantiklər dünyanı ilhamla, yaradıcı şəkildə tərənnüm edir, hadisə və predmetlərin üzərindən adilik pərdəsini götürərək, onların arxasındakı gözəlliyi aşkara çıxarırlar.*

*Şair missiyası – görücü, həqiqət carçısı və peyğəmbər missiyasıdır.*





*Şair üçün təbiət gözəllik və ilham mənbəyi, əbədi və hər şeyi əhatə edən həqiqətin ifadəçisidir.*

*Nailiyyətlər, uğurlu tapıntılar nə qədər əhəmiyyətli olsa da, qədim mədəniyyətimizin bir çox cəhətləri kölgədə qalmış, xüsusən XII əsrdən əvvəlki çağların ədəbi və tarixi mənzərəsi səthi mülahizələr, sistemsiz araşdırmalar çərçivəsindən kənara çıxa bilməmişdir.*

*İnsanın etdiyi xeyirxahlıq zahiri mərasimlərə riayət etməkdən yüksəkdə durur və buna görə onu mükafatlandıran Allah üçün daha əziz, daha istənilləndir.*

*Ərəb dilində yazılmış bədii və fəlsəfi sənət nümunələrinin doğma dilimizə tərcümə olunması, onların rus dilində nəşri işinin təşkil edilməsi, dünyanın müxtəlif kitabxanalarına səpələnmiş nümunələrin axtarılıb tapılması qarşıda duran mühüm məsələdir.*

*Gözəllik və humanizm həmişə romantik sənətkarın idealı olmuşdur. Maarifçilərin əksinə olaraq, romantik şair dünyanı ilhamla, yaradıcı şəkildə tərənnüm edir, hadisə və predmetlərin üzərindən adilik pərdəsini götürərək, onların arxasında gözəlliyi aşkara çıxarır.*

*Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı haqda həm ölkəmizdə, həm də xaricdə maraqlı monoqrafi-*

*yalar yazılmış, tədqiqatlar aparılmışdır. Lakin şairin yaradıcılığının kompleks, çoxcəhətli təhlili hələ də gələcəyin vəzifəsidir.*

*Şihabəddin Yəhya Sührəvərdinin əsərləri orta əsr Azərbaycan fəlsəfəsinin nadir incilərindəndir.*

*Azadlığı ər-Reyhani fövqəladə dərəcədə geniş başa düşür – bu həm şəxsiyyət azadlığı, həm yaradıcılıq azadlığı, həm də xalqın azadlıqdan azad olmasıdır.*

*...“göl məktəbi” və transsendentalizm Cübran və ər-Reyhaninin yaradıcılığında romantik metodun təşəkkül tapmasına səbəb oldusa, rus ədəbiyyatı ilə əlaqə və ünsiyyət isə realist Nüaynəni formalaşdırdı.*

*Запад должен передать Востоку научно-технические достижения, а Восток взамен этого должен передать Западу свои богатые духовные и философские ценности.*





## Görkəmli şəxsiyyətlər Aida İmanquliyeva haqqında

Aida xanım unudulmaz bir şəxsiyyət idi. O, qısa, amma çox parlaq və xoşbəxt həyat yaşamışdır. Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləmişdir. Yüksək savadlı, ziyalı, vətənpərvər, prinsipial bir alim, eyni zamanda çox zərif, çox gözəl, bütün sevgisini ailəsinə bağışlayan, hər zaman ürəkdən kömək göstərməyə hazır olan bir qadın idi. Aida xanımın bütün elmi yaradıcılığı Azərbaycan ilə Şərq dünyası arasında əlaqələrin qurulub möhkəmlənməsinə yönəldilmişdir. Eyni zamanda, o, Azərbaycan elminin düşüncələrinin, fəlsəfəsinin, islam aləmində yayılmasına nail olmuşdur. Bu gün müstəqil Azərbaycanda, demək olar ki, Aida xanımın bütün arzuları artıq reallıqdır və respublikamızın müsəlman ölkələri islam dünyası ilə nəinki elmi, mədəni əlaqələr, həm də ən yüksək səviyyədə iqtisadi, siyasi əlaqələr qurubdur. Bütün bu sahələrdə Aida xanımın arzuları, onun elmi irsi bu gün də yaşayır və dövlətimizə xidmət edir.

**Mehriban Əliyeva,**
*Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,*
*Heydər Əliyev Fondunun və Azərbaycan*
*Mədəniyyət Fondunun prezidenti*

O, doğrudan da parlaq və nadir bir insan idi. Onun ucalığı heç kəsin kiçilməsi demək deyildi. Onun parlaqlığı heç kəsi zülmətə qərq etmək vadarlığına gətirib çıxarmırdı. O, sözün əsl mənasında nadir və parlaq insan idi. Çünki onun zahiri gözəlliyi müqabilində çox zəngin daxili aləmi var idi. Həmin o zahiri

gözəllik daxili gözəlliklə bir harmoniyada idi. Bu insan doğrudan da mükəmməl əqidəyə, möhkəm prinsiplərə malik bir insan idi. O, doğrudan da göründüyü qədər təbiətən gözəl idi. O, göründüyü kimi olmağı bacaran və olduğu kimi görünməyi bacaran insanlardan idi. Əfsuslar olsun ki, ömür vəfa etmədi və o, indi aramızda yoxdur. Əlbəttə, o, bizim ailəmizin və başımızın tacı olub. O, bizim ürəyimizin məlhəmi olub. Onun yoxluğu zaman kəsiyində həsrəti azaltmayıb. Çünki Anaya olan həsrəti heç bir zaman azalda bilməz. Yaxşı dosta olan həsrəti heç bir uzun zaman azalda bilməz. Sevimli insana olan həsrəti ən böyük zaman azalda bilməz.

Ömür anidir, keçicidir, bəlkə də fanidir, həyat isə daimidir, əbədidir. Ömrü ölçə bilən meyarlar var – saatlar, günlər, aylar, illər var. Ömür bir nəfərə – təkə bağlıdır, həyat isə külli-bəşəriyyətə, cəmə bağlıdır. Ömür aydındır, cünki ömrün əvvəli də var, sonu da. Amma həyat aydın deyil. Çünki həyatın nə əvvəlini bilən var, nə də sonunu. Bu, həmişə belə olub və belə də olacaq. Çünki ömür konkret, həyat isə abstraktdır. Yaranan nə varsa, bu iki vəhdətin qanunu arasında yaşayır. Elə insanlar olur ki, onların ömrü qısa olsa da, qurtarsa da, həyatı davam edir. Biz onları görmürük, səsini eşitmirik, amma qəlbimiz onlarla danışır. Gözlərimiz onları görmür, amma onların siması, cizgiləri, surəti daim canımızda, qanımızda, ürəyimizdədir və o surət bizi heç vaxt tərk etmir.

**Nərgiz Paşayeva,**
*akademik*

Görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida İmanquliyeva Azərbaycanın elm tarixində dərin izlər salmış, şərəfli ad qazanmışdır.





Aida xanım İmanquliyeva özünün sanballı əsərləri ilə Azərbaycan şərqşünaslıq elminin inkişafına qiymətli səhifələr əlavə etmişdir. O, Azərbaycan şərqşünaslıq elminə yeni elmi istiqamət yaratmağa müvəffəq olmuşdur. Azərbaycan elmində ərəb mühacirət ədəbiyyatının tədqiq edilib öyrənilməsi professor Aida İmanquliyevanın adı ilə bağlıdır. Ərəb mühacir ədəbiyyatının əsas istiqamətlərinə və tanınmış şəxsiyyətlərinə həsr edilmiş sanballı əsərləri ilə Aida İmanquliyeva böyük ənənələri olan Azərbaycan şərqşünaslıq elmini yeni ideyalar, mövzular və ədəbi şəxsiyyətlərlə zənginləşdirmişdir.

**Akif Əlizadə,**
*AMEA-nın prezidenti, akademik*

Aida xanımı tanıyanlar onun böyük zəhmətkeş və həddindən ziyadə özünə qarşı tələbkar bir alim olduğunu yaxşı bilirdilər. Aida xanımın qələmindən çıxan hər bir əsər gərgin, böyük bir zəhmətin nəticəsidir. Bütün bu deyilənlərin arxasında yüksək insani keyfiyyətlərə malik, təvazökar, mehriban, xeyirxah, gözəl, xanım–xatın bir azəri qadını və anası obrazı dururdu ki, bu da ona bütün həmkarlarının ehtiramını və məhəbbətini qazandırmışdı.

Aida xanım İmanquliyevanın elmi fəaliyyətinin maraq dairəsi geniş və çoxşaxəli idi. Onun elmi əsərlərində Qərb və Şərq mədəni əlaqələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii cərəyanların təşəkkül tapması tədqiq olunub ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatının gələcəkdə tədqiqi üçün çox mühüm zəmin yaratdı.

Bu baxımdan Aida xanım İmanquliyevanın əsərləri nəinki milli Azərbaycan, yaxud keçmiş sovet, hətta cəsarətlə demək olar ki, bütün dünya ərəbşünaslığına qiymətli bir hədiyyədir.

**Ziya Bünyadov,**
*akademik*

Professor Aida İmanquliyeva Azərbaycanda şərqşünaslıq tədqiqatlarının istiqamətini ilk dəfə ardıcıl və sistemli şəkildə ədəbiyyatşünaslıq səmtinə yönəldib, bu istiqamətdə tədqiqatlar aparıb. Onun ərəb ədəbiyyatına həsr edilən fundamental və dərin ümumiləşdirməyə malik elmi əsərləri Azərbaycan şərqşünaslıq elmini zənginləşdirən və yeni istiqamətlər açan tədqiqatlar kimi böyük əhəmiyyətə malikdir.

Professor Aida İmanquliyeva Azərbaycan şərqşünaslığının ədəbiyyatşünaslıq elmi istiqamətinin yaradıcısı və rəhbəri olub. Görkəmli alimin Azərbaycan şərqşünaslarının yeni nəslinin inkişafında böyük xidmətləri var. Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin və Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Aida İmanquliyeva ölkəmizdə şərqşünaslıq elmi sahəsində özünəməxsus yol açan, məktəb yaradan görkəmli alimdir. O, bütün həyatını ərəb ədəbiyyatı korifeylərinin yaradıcılığının öyrənilməsinə həsr edib, bu mövzuda sanballı elmi əsər nəşr etdirib. Görkəmli alimin qiymətli və zəngin elmi irsi şərqşünaslar üçün faydalı bələdçi və dəyərli mənbə kimi böyük əhəmiyyətə malikdir.

**İsa Həbibbəyli,**
*akademik*

Elm aləmində nadir istedada malik elə şəxsiyyətlər var ki, onların elmə gətirdiyi yenilik və çəkdikləri zəhmətin tam həcmi zaman və elmi təfəkkür inkişaf edib zənginləşdikcə aydın dərk edilir. Onların elmə verdikləri töhfə vaxt axarında yeni tədqiqatçılar tərəfindən daha dəqiq, daha yüksək qiymətləndirilir. Aida Nəsir qızı İmanquliyeva belə alimlərdən, belə şəxsiyyətlərdəndir.

Professor Aida İmanquliyeva Azərbaycanda Şərq-Qərb qarşılıqlı ədəbi əlaqə və təsirini sistemli şəkildə araşdıran ilk alimdir. O, Şərq və Qərb mədəniyyətlərinin qarşılıqlı təsir və əlaqələrini öyrənərkən hər iki ədəbiyyatın ümumbəşəri dəyərlərini əsas götürür, mədəni tərəqqini şərtləndirən amillərə istinad edirdi. Alimin tədqiqatları nəticəsində mütləq bir həqiqət müəyyənləşmişdir: Şərqin bir çox ölkələrinin müasir inkişafı bir həqiqəti ortaya qoyur – Qərbin mədəni dəyərləri o zaman yerli zəmində kök sala və onu zənginləşdirə bilər ki, onlar Şərq ənənəsinə və milli xarakterə uyğun formalarda əxz edilsinlər. Aida xanımın çoxsaylı elmi əsərlərində Qərb və Şərq mədəni ənənələrinin sintezi, yaradıcı üslubun inkişafı və yeni bədii üslubun təşəkkül tapması tədqiq olunur ki, bu da nəinki ərəb ədəbiyyatının, həmçinin bütün yeni Şərq ədəbiyyatlarının həmin aspektdə tədqiqi üçün çox mühüm zəmin yaradır.

**Gövhər Baxşəliyeva,**
*akademik*

Aida İmanquliyeva çoxsaylı elmi əsərlərinə əbədi ömür bəxş etmiş, bütün varlığı milli kökə, xalqa bağlı şəxsiyyət olmuşdur. Onun əsərlərində xalqın maariflənməsi, milli yaddaşın qorunması, tərəqqiyə doğru irəliləməsi kimi nəcib niyyətlər daim özünü qabarıq göstərmişdir. Elmi tədqiqatlarını əsl alim təəssübkeşliyi ilə aparan, ərəb filologiyası sahəsində özünəməxsus məktəb yaradan görkəmli alim ərəb ədəbiyyatının bir sıra korifeylərinin yaradıcılığını tamamilə yeni rakursdan araşdıraraq onları Azərbaycan ədəbi ictimaiyyətinə tanıtmışdır. Bununla da o, ərəb və Azərbaycan ədəbiyyatları arasında möhkəm körpü yaratmağa, ədəbi xəzinəmizi daha da zənginləşdirməyə çalışmışdır.

**Vasim Məmmədəliyev,**
*akademik*

Aida İmanquliyevanın elmi yaradıcılığı həqiqətən çox əvəzsiz, qiymətli və dəyərlidir. O, elmdə də, ictimai fəaliyyətində də, şəxsi həyatında da həmişə olduğu kimi görünürdü. Alimin fun-

damental əsərləri “Mixail Nüaymə” və “Qələmlər birliyi”, “Cübran Xəlil Cübran”, “Yeni ərəb ədəbiyyatının korifeyləri”, yerli və xarici nəşrlərdə çoxsaylı məqalələri həm bizim vətən elminin görünən bir fəslini, həm də bu gün çox vacib olan elmi axtarışların mənəvi əsasını təşkil edir.

Aida İmanquliyevanın elmi əsərləri onun dərin, humanist şəxsiyyətinin təzahürüdür. O, çox gözəl, zəhmətkeş, elmli bir Azərbaycan xanımı olmaqla yanaşı, həm də zahiri görünüşü ilə hamının diqqətini çəkmiş və ömrünün sonunacan əsl Azərbaycan xanımına məxsus ləyaqətli davranış normalarını gözləyən bir qadın, nümunəvi ana kimi yaddaşlarda qalmış, ürəklərdə kök salmışdır.

**Nərgiz Axundova,**
*akademik*

İxtisası bizim filologiya elmində nadir adamların məşğul olduğu bir sahə idi: ərəb filologiyası. Azərbaycanda başqaları ilə müqayisədə bu sahədə çalışan mütəxəssis azdır. Ərəbşünaslarımızın da çoxu qədim və orta əsrlərin ərəb ictimai–ədəbi fikrini tədqiq edir. Aida İmanquliyeva isə o nadir şərqşünaslardan idi ki, çağdaş ərəb ədəbiyyatını, XX əsr ictimai fikrinin görkəmli nümayəndələrinin yaradıcılığını araşdırırdı.

...Bu görkəmli alimin bütün kitabları mənim şəxsi kitabxanamda var. “Yeni ərəb ədəbiyyatının korifeyləri”ni də, öz mübarək xətti ilə avtoqraf yazıb mənə bağışlamışdı. Bu kitabı mən yüksək mənəviyyatlı, gözəl bir təfəkkür sahibinin, cəfakeş alimin əziz yadigarı kimi ömrümün sonuna qədər qoruyub saxlayacağam.

**Bəkir Nəbiyev**,
*akademik*





Azərbaycanın, millətimizin XX yüzillikdə tarixi uğurlarından biri, məncə, Azərbaycan qadınlığıdır, ictimai-siyasi, mədəni həyatın bütün sahələrində fenomen kimi qərarlaşmış müasir Azərbaycan qadınıdır. Əgər Azərbaycan xalqının XX əsrdə ən layiqli 100 qadınının siyahısı tərtib olunsa, bunlardan biri Aida xanım İmanquliyevadır.

**Cəmil Quliyev,**
*akademik*

Əziz xatirəsini sonsuz hörmət və məhəbbətlə yad etdiyimiz böyük insan, istedadlı alim, ictimai xadim, gözəl qadın və ana olan Aida İmanquliyeva da məhz elmimizin, mədəniyyətimizin həmin qızıl dövrünün yetişdirdiyi görkəmli nümayəndələrindən olmuşdur. …Aida xanım istedadlı alim, çağdaş ərəb ədəbiyyatının bilicisi, bu sahə üzrə Azərbaycanda ilk qadın elmlər doktoru idi. “Mixail Nüaymə”, “Cübran Xəlil Cübran”, “Yeni ərəb ədəbiyyatı korifeyləri” kimi tədqiqat əsərləri öz elmi əhəmiyyətini və dəyərini qoruyub saxlamaqdadır.

**Fərəməz Maqsudov,**
*akademik*

O, aktiv bir vətəndaş-alim, elmi ictimaiyyətin hörmətini qazanmış nüfuzlu elm xadimi idi.

…Aida xanım eyni zamanda istedadlı və bacarıqlı bir elm təşkilatçısı idi. O, yalnız Azərbaycan ədəbiyyatşünaslığının deyil, ümumiyyətlə milli şərqşünaslıq elminin inkişafında əhəmiyyətli rol oynamışdı.

…Aida İmanquliyevanın qələmi yazıçı qələmi idi və məsələ yalnız onda deyildi ki, o, Azərbaycan Yazıçılar İttifaqının üzvü idi, Mixail Nüaymə, Cübran Xəlil Cübran, Əmin ər Reyhani kimi məşhur ərəb yazıçılarının bədii əsərlərini Azərbaycan dilinə gözəl tərcümə etmişdir.

**Elçin Əfəndiyev,**
*Xalq yazıçısı*

Dünya şərqşünaslığı tarixində xüsusi yeri olan görkəmli alim, professor Aida İmanquliyevanın həyatı, elmi və yaradıcılıq fəaliyyəti ilə daha yaxından tanış olduqca, haqqında xatirələri oxuduqca gözlərimiz önündə xeyirxah, nəcib və mütəfəkkir bir insan, mədəni-intellektual qadın obrazı canlanır.

Aida xanımda Azərbaycan qadınlarına xas olan ən nəcib keyfiyyətlər təcəssüm edirdi. Onun ömür yolu həyatın, varlığın əsasında duran mənəvi bağları qurmağa can atan bir insan idrakının, bir ana, bir qadın ruhunun təcəssümü olub.

Çoxşaxəli yaradıcılığa malik, ictimai həyatda da geniş fəaliyyət dairəsinə sahib olan Aida xanım bütün bunların fövqündə ailə ocağının müqəddəsliyini, Şərq qadınına məxsus olan incə ruhu qoruyan gözəl həyat yoldaşı, övlad sevgisi ilə yaşayan mehriban ana, qayğıkeş nənə, əsl xanım, zərif qadın idi. Bəlkə də elə bu xarakterin ifadəsidir ki, xalqımızın tarixində ilk azərbaycanlı qadın – ərəbşünas – elmlər doktoru olan bu böyük alim öz həyatını xalqının tarixinin, ənənələrinin minillik dərin köklərlə bağlı olduğu Şərq mədəniyyətini və ədəbiyyatını öyrənməyə sərf edərək özünün şəxsiyyəti və yaradıcılığı timsalında dünənimizlə bu günümüz arasındakı əlaqə bağlarını bərpa etməyə çalışıb. Azərbaycanın elm tarixində əhəmiyyətli rolu olan görkəmli alim Aida İmanquliyeva istedadlı şəxsiyyət və ictimai xadim kimi ədəbiyyatımızda, eyni zamanda, fəlsəfi təfəkkürdə dərin iz qoyub.

Gözəl alim olan Aida İmanquliyeva istedadlı tərcüməçi, mahir ədəbiyyatşünas, natiq idi. Həmkarları onu böyük mütəfəkkir, görkəmli ictimai xadim və müdrik filosof kimi tanıyırdılar.

**Hicran Hüseynova,**
*siyasi elmlər doktoru, professor*





Dünyasını çox vaxtsız dəyişən görkəmli alimin nəinki şərqşünaslıq, ümumən elm haqqında çox maraqlı və gərəkli fikirləri, planları var idi.

**Ağamusa Axundov,**
*akademik*

Düz 30 il Şərq mədəniyyətini, mənəvi dəyərlərini, ictimai-siyasi fikrini fəlsəfi düşüncələrinin işığında araşdıran, Şərq-Qərb dəyərləri kontekstində tədqiqata cəlb edən, "Köç yolu"ndan keçənlərdən soraq verən Aida xanım hələ ötən əsrin 70-ci illərində, sərhədlərin qapalı olduğu, imperiyanın at oynatdığı dövrdə vətəndaş ziyalı, qüdrətli alim kimi öz sözünü deyərək, insanları, dövlətləri Böyük Köç Yoluna – İpək Yoluna səsləmişdi.

Onun qədim Misir mənşəli adı – Aida sonradan C.Verdinin eyniadlı operasında təsvir edilən məhəbbətə sədaqətli, eşqini hər cür mənafelərdən yüksək tutan safürəkli, fədakar qadın obrazına çevrilmişdir.

Minilliyin dərinliyindən süzülüb gələn bəşəri nur sonradan onun bütün varlığına, yaradıcılıq yoluna işıq saçdı. Bəlkə də adına sadiqliyi idi ki, o, məhz xalqımızın tarixinin, mədəniyyətinin minilliklər boyu dərin köklərlə bağlı olduğu Şərq mədəniyyəti və ədəbiyyatını tədqiqat obyekti seçdi. Azərbaycan şərqşünaslığında yeni dövr ərəb ədəbiyyatının ilk tədqiqatçısı və ilk azərbaycanlı ərəbşünas qadın elmlər doktoru adını aldı. Aida xanım özündən sonra çağdaş ərəb ədəbiyyatının tədqiqində yeni bir səhifə, yeni bir yol açdı.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

Böyük fəxrdir ki, Aida xanım xalqımızın ilk ərəbşünas qızı, alimi, elmlər doktoru idi. Şərq mədəniyyəti və ədəbiyyatının dərin bilicisi, mahir tədqiqatçısı və qeyri-adi təbliğatçısıydı.

**Teymur Bünyadov,**
*akademik*

O, qısa və parlaq ömür yaşadı.

İnsafsızca gödək olan bu ömür payı ərzində həmin illərə sığmayacaq qədər çoxlu və gərəkli işlər gördü.

Öz həyat yolu qısa olsa da, elmdə özündən sonra bitmədən davam edəcək bir yol yaratmağa nail oldu.

Aida xanım mətni şərqli kimi duyma, avropalı kimi araşdırmaq vərdişini də müasir Azərbaycan ərəbşünaslığında bərqərar edən, Avropa oriyentalistikası modellərini şərqşünaslıq araşdırmalarımızda işlək ünsürə çevirən başlıca simalardandır.

**Rafael Hüseynov,**
*akademik*

Şərq dəyərlərini Aida xanım yalnız filoloq-mediyevist kimi təmsil etmirdi. Bütün xanımlıq məlahəti, qənirsiz gözəlliyi ilə o, Şirinin, Leylinin özü idi. Hər halda ən azı Şərqşünaslıq İnstitutunun "Şərq gözəli", "Bakılı Leylisi" Aida xanım idi...

**Yaşar Qarayev,**
*AMEA-nın müxbir üzvü*

*O, sözə vurğun olmuş, özü də bir şeirkən*
*Elmi kimi gözəldir, Nəsir qızı Aida!*
*Təvazökar, zəhmətkeş, axtarışdan yorulmaz,*
*Ərəbşünas qızların dan ulduzu Aida !*

**Əkrəm Cəfər,**
*şərqşünas-filoloq*





Aida xanımın tədqiqlərində ərəb məhcər ədəbiyyatının görkəmli yazarlarının yaradıcılığı kontekstində ilk dəfə olaraq yeni dövr Ərəb–Avropa ədəbi əlaqələri – ingilis romantizmi, rus tənqidi-realizmi, amerikan transsendentalist ədəbiyyatının Ceferson, Uitmen, Çexov, Dostoyevski kimi dünyaşöhrətli ədəbi simalarının ərəb ədəbi mühitində mövqeyi probleminin xüsusi olaraq geniş işıqlandırılmasının şahidi oluruq. Həm də diqqəti çəkən budur ki, alim bu əlaqələrin formal cəhətini önə çəkmir, onları milli ənənələrlə sintezləşmə prosesində təhlil və tədqiqə üstünlük verir.

**Azadə Rüstəmova,**
*professor, Əməkdar elm xadimi*

Azərbaycan elmi Aida xanımın simasında əsl bir elm fədaisini, Azərbaycan xalqı sözün tam mənasında Tomris ləyaqətli, Nüşabə və Həcər qeyrətli, bütün məqamlarda onun mənafeyini ləyaqətlə qoruyan fədakar bir qızını itirdi. Aida xanım istər daxildə, istərsə də xaricdə ən böyük mövqelərdə işləməyə layiq, necə deyərlər, çox diplomatları susdura biləcək qüdrətə malik bir xanım idi. Onun elmi biliyi ilə diplomatiyası bir harmoniya təşkil edirdi.

**Vilayət Cəfərov,**
*filologiya elmləri doktoru, professor*

Mən Mehriban xanımı görəndə, sanki Aida İmanquliyevanı görürəm... Aida xanım Azərbaycanın qadınlıq simvolu və əsl Şərq gözəli idi.

**Habil Əliyev,**
*Xalq artisti*

Aida xanımın ailəsi bütün Azərbaycan ailələri üçün nümunə idi. Bu gün onun ruhu şaddır, ona görə ki, gözəl əməllərini onun gözəl qızları layiqincə davam etdirirlər. Aida xanım Azərbay-

canımıza ölkəmizin adını yüksəklərə qaldıran Mehriban xanım kimi övlad bəxş edib, mən Mehriban xanımı Aida xanımın çox böyük əsəri kimi qiymətləndirirəm.

**Ramiz Quliyev,**
*Xalq artisti*

Onun elmi yaradıcılığının ana xəttini Qərb və Şərq mədəni əlaqələrinin sintezinin təşkil etməsi, Şərqin neçə-neçə yazarlarının əsərlərini dilimizə tərcümə etməsi, bir ictimai xadim, elm təşkilatçısı olaraq, Şərşünaslıq İnstitutunun direktoru kimi fəaliyyət göstərərək münasibətlərin, əlaqələrin qovşağı olması da sanki tale tərəfindən bu yaradıcı, məhsuldar insana bəxş edilən bu həyat missiyasının – mənəvi körpü olmaq missiyasının ifadəsidir.

**Afaq Əsədova,**
*fəlsəfə elmləri doktoru*

Professor Aida İmanquliyeva Azərbaycan tarixində elmlər doktoru elmi dərəcəsi almış və Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitina rəhbərlik etmiş ilk şərqşünas qadın olmuşdur.

Aida İmanquliyevanın əsərləri, xüsusilə "Yeni ərəb ədəbiyyatı korifeyləri" monoqrafiyası Şərq və Qərb ədəbiyyatlarının qarşılıqlı təsir və qarşılıqlı əlaqə məsələlərinin müasir tədqiqində olduqca aktualdır. Qarşılıqlı əlaqələr tədqiqatçı tərəfindən güclü inkişaf etmiş ədəbiyyatların zəif inkişaf etmiş ədəbiyyatlara təsiri kimi deyil, məhz qarşılıqlı əlaqə kimi şərh edilir.

A.İmanquliyevanın tədqiqatları akademiklər İ.Y.Kraçkovskinin və A.E.Krımskinin klassik əsərlərindən sonra mühacir ərəblərin yaratdığı ədəbiyyatın tədqiq olunduğu ciddi araşdırmalar oldu.

**Yuri Osipov,**
*Rusiya EA-nın prezidenti, akademik*





Вспоминая Аиду ханум, не перестаешь удивлятся, как природа смогла вложить в одного человека все, что создает образ идеальной женщины.

**Чингиз Каджар,**
*академик*

Когда я впервые увидела Аиду, я была просто поражена, даже заворожена ее красотой.

…В Аиде было что-то царственное, величественное, гордое. Когда она улыбалась, ее бездонные красивые восточные глаза искрились, излучая искреннюю радость и тепло. Вместе с тем общаться с ней было очень легко и приятно. Она была удивительно обоятельна и женственна.

**И.Е.Билык,**
*кандидат филологических наук, доцент*

Старые сотрудники Института востоковедения АН СССР хорошо помнят молодую аспирантку Аиду Имангулиеву, посвятившую себя изучению новоарабской литературы. Мне, тогда сотруднику Института востоковедения, неоднократно приходилосьбеседовать с ней в связи с ее кандидатской диссертацией, и меня всегда поражало то упорство, с которым эта молодая, красивая девушка трудится над одной из сложнейших проблем новой арабской литературы, требующей хорошего знакомства не только с творчеством арабских писателей, но и с произведениями русских и западноевропейских писателей XIX и начала XX веков. Меня всегда приятно поражали та преданность науке и неизбывный интерес к изучаемому вопросу, которые в то время были далеко не всегда свойственны молодым аспирантам. Уже тогда можно было с уверенностью утверждать, что из Аиды выйдет серьезный ученый, дальнейшая дея-

тельность Аиды Насировны полностью оправдала связанные с нею ожидания.

**И.М.Фильштинский,**
*доктор исторических наук, профессор*

В творчестве относящихся к ней писателей – Рейхани, Джубрана, Нуайме и др. – тесно сплелись традиции и новаторство, влияние Запада и опора на все лучшее из арабского наследия, тенденции сентиментализма, романтизма и реализма. Эти писатели задали тон развитию всей арабской литературы в первой половине XX века. Они явились для остальных законодателями новых направлений, жанров и форм.

Поле для исследований открылась поистине необъятное, но Аида не отступила перед сложностьями. По ее работам и докладам было видно, как уходит прочь прежняя несамостоятельность, как растет и крепнет ее научный потенциал, как расширяются знания в различных областях и западных литератур, и не случайно основной аспект, в котором Аида рассматривала наследие «сиро-американской» школы, – это аспект сравнительного литературоведения, значение которого в данном контексте трудно переоценить.

**А.А.Долинина,**
*профессор Санкт-Петербургского государственного университета*

Природа наделила Аиду Имангулиеву не только женственностью и красотой, поистине царственной, но и такими качествами, которыми обладает далеко не всякий мужчина: целеустремленностью, твердостью характера, силой воли, мужеством.

**В.Н.Кирпиченко,**
*доктор филологических наук, профессор*





Великолепная русская речь, думается, намеренно перемежалась прекраснозвучным азербайджанским повествованием, которому нам, стыдящимся несовершенства владения родным языком, хотелось подражать. Голос, неторопливо плавная жестикуляция, интонации размышления и художественного пафоса создавали атмосферу причастности к научному поиску. Еще одним средством формирования обстановки непринужденности и доброжелательности была улыбка Аиды ханум. Когда она улыбалась, царственность, всегда свойственная ее облику, уступала место благожелательной внимательности и сердечности.

**Фарда Асадов,**
*доктор философских наук по истории*

# ƏSƏRLƏRİ

## Kitabları

### 1975

**1. Cübran Xəlil Cübran: (həyat və yaradıcılığı)** / Aida İmanquliyeva; red. V.M.Quluzadə; Azərb. SSR EA Yaxın və Orta Şərq Xalqları İn-tu. – Bakı: Elm, 1975. – 70, [2] s.

"Qələmlər cəmiyyətinin" yaradıcısı və sədri, Amerikada yaranmış ərəb ədəbiyyatının ən görkəmli nümayəndəsi, Livan filosof, rəssam, şair və yazıçısı Cübran Xəlil Cübran haqqında.

### 1986

**2. Şərq filologiyası məsələləri** / Aida İmanquliyeva, M.D.Kazımov, V.M.Məmmədəliyev, A.B.Qurbanov. – Bakı: Elm, 1986. – 171 s.

### 2002

**3. Cübran Xəlil Cübran** / Aida İmanquliyeva; red. A.Əsədova. – Bakı: Elm, 2002. – 119 s.

Kitabda müasir ərəb ədəbiyyatının görkəmli və orijinal simalarından biri Avropada və Amerikada çoxlarının mahir rəssam kimi tanıdığı, mühacirətdə "Qələmlər birliyi" ədəbi cəmiyyətinin təsisçisi və ilk sədri olan Cübran Xəlil Cübranın həyat və yaradıcılığından bəhs olunur.

**4. "Qələmlər birliyi" və Mixail Nüaymə:** ali məktəblər üçün dərs vəsaiti / Aida İmanquliyeva; red. A.Əsədova; rəyçi A.A.Dolinina; AMEA. – Bakı: Elm, 2002. – 179, [1] s.





Kitab yeni ərəb ədəbiyyatının inkişafında misilsiz xidmətləri olan, XX əsrin 20-ci illərində mühacir ərəb mütəfəkkirlərinin yaratdıqları "Qələmlər birliyi" ədəbi cəmiyyətinin banilərindən biri olan Mixail Nüaymənin həyat və yaradıcılıq yoluna həsr edilmişdir. Müəllif ədəbi birliyin üzvlərinin yaradıcılıq yolunun geniş xülasəsini verir, rus klassik ədəbiyyatının onların dünyagörüşünə və yaradıcılığına təsirini göstərir.

***Kitabın içindəkilər:*** Giriş; I Fəsil: *"Qələmlər birliyi" ədəbi cəmiyyətinin yaranması;* II Fəsil: *"Qələmlər birliyi"nin xadimləri:* Cübran Xəlil Cübran (1883-1931) yaradıcılığının ümumi səciyyəvi xüsusiyyətləri; İlya Əbu Mada (1889-1957); Nəsib Əridə (1887-1946); Rəşid Əyyub (1871-1941); Əbd-əl-Məsih Həddad (1890-1963); Nədra Həddad (1881-1950); Uilyam Kətisflays (1879-1950); İlyas Atallah; "Qələmlər birliyi" yazıçılarının yaradıcılığının səciyyəvi xüsusiyyətləri. III Fəsil: *Mixail Nüaymənin həyat yolu*; IV Fəsil: *Mixail Nüaymə yaradıcılığının əsas mərhələləri*; Mixail Nüaymənin mühacirət yaradıcılığı. Rus klassik ədəbiyyatının təsiri; M.Nüaymə yaradıcılığının mühacirətdən sonrakı dövrü. V Fəsil: *Mixail Nüaymə novellistikası*. Nəticə. Ədəbiyyat.

### 2003

**5. Yeni ərəb ədəbiyyatı korifeyləri** (XX əsrin əvvəllərində Şərq və Qərb ədəbiyyatlarının qarşılıqlı əlaqəsi probleminə dair): Ali məktəblər üçün dərslik / Aida İmanquliyeva; red. A.Əsədova; rəy.: A.A.Dolinina, A.B.Kudelin, N.İ.Priqarina; AMEA. – Bakı: Elm, 2003. – 398, [2] s.: portr.

Kitab XX əsrin əvvəllərində yeni ərəb ədəbiyyatının üç korifeyinin – hər biri yalnız milli ədəbiyyata deyil, həm də dünya ədəbiyyatı xəzinəsinə son dərəcə qiymətli töhfə vermiş

Cübran (1883-1931), ər-Reyhani (1876-1940) və Nüaymənin (1889-1988) yaradıcılıq yoluna həsr edilmişdir.

Kitabda həmçinin ərəb yazıçılarının yaradıcılığında Amerika transsendentalistlərinin və ingilis romantiklərinin "göl məktəbi" nin və rus ədəbiyyatı tənqidi realizm ənənələrinin qarşılıqlı təsir və repsepsiyası tədqiq edilmişdir. Geniş ədəbi paralellərə müraciət və ərəb ədəbiyyatına dair materialların dərindən araşdırılması müəllifə bədii metodun – C.X.Cübran və Ə.ər-Reyhani romantizminin və M.Nüaymənin tənqidi realizminin təşəkkülündə və təkamülündə kros-mədəni əlaqələrin roluna dair əsaslı nəticələrə nail olmasına imkan yaratmışdır.

***Kitabın içindəkilər:*** Afaq Əsədova. Azərbaycan ədəbi fikrinin incisi. Giriş. *I Fəsil. Mühacirətdə (ABŞ) ərəb ədəbiyyatının yaranması və xarici ədəbiyyatın "Suriya-Amerika məktəbi" yazıçılarının yaradıcılığına təsiri məsələləri:* Livanın ictimai-siyasi həyatı (XIX əsrin ortaları – XX əsrin əvvəlləri) və mühacirətdə ərəb ədəbiyyatının yaranması; "Suriya – Amerika məktəbi" yazıçılarının yaradıcılığına xarici ədəbiyyatın təsiri məsələləri.- *II Fəsil. Cübran Xəlil Cübran. Romantizm metodunun inkişafı:* Cübranın erkən yaradıcılığında sentimentalizm; Dünyanın romantik görümünün başlanğıcı. İngilis və Amerika romantizm metodunun mənimsənilməsi; Romantizm Cübran yaradıcılığında əsas metod kimi; "Peyğəmbər" – Cübran yaradıcılığında yeni mərhələ kimi.- *III Fəsil. Əmin Ər-Reyhani və onun Ərəb romantizminin təşəkkülündə rolu:* Gerçəkliyin romantik mənimsənilməsi və Amerika romantiklərinin təcrübəsi; Ər-Reyhani romantizmi "Hərəmxana divarlarından kənarda" povestində və kiçik nəsr janrlarında.- *IV Fəsil. Mixail Nüaymə və XIX əsr rus ədəbiyyatı:* V.Q.Belinskinin estetikası tənqidçi Nüaymə qavramında; L.N.Tolstoyun dünyagörüşünün M.Nüaymənin yaradıcılığına təsiri; M.Nüaymənin "Atalar və oğullar" pyesi və İ.S.Turgenevin eyniadlı romanı; M.Nüaymə novellaçılığı və Çexov ənənələri.– Nəticə.– Sitatlar.– İstifadə olunan ədəbiyyat.– Заключение.– Summary.– əl-Xülasə.





**2010**

**6. Məqalələr və tərcümələr** / Aida İmanquliyeva; tərt. ed., ön söz və şərh. müəl. V.Cəfər; elmi red. G.Baxşəliyeva; AMEA Akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İn-tu. – Bakı: Bakı Çap Evi, 2010. – 487, [1] s.

Kitab Azərbaycan xalqının tanınmış qadın şərqşünası, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın ötən əsrin 60-80-ci illərində qələmə aldığı məqalələrin və ərəb dilindən Azərbaycan dilinə etdiyi hekayə tərcümələrinin ilk toplusudur. Ədəbiyyatşünaslığın nəzəri problemləri fonunda tədqiqata cəlb edilmiş bu əsərlər özünün elmiliyi, fikirlərin məntiqiliyi və səbatlılığı cəhətdən oxucu, mütəxəssis rəğbətini qazanan tədqiqatlardır.

***Kitabın içindəkilər: Məqalələr*** *(Azərbaycan dilində):* N.Nuaymə və XIX əsr rus ədəbiyyatı; Əmin ər-Reyhani və din; İspaniyada ərəb ədəbiyyatının yaranması və inkişafı tarixinə dair; Müasir ərəb yazıçısı Mixail Nüaymənin novellalarındakı realizm haqqında; Qorki və Ərəb Şərqi; Ərəb xalqının məhəbbəti; Möhkəmlənən dostluq: Sovet-Ərəb mədəni əlaqələrindən; Ərəb Əndəlus ədəbiyyatının bəzi xüsusiyyətləri haqqında (X-XI əsrlər); Ərəb yazıçılarının əsərlərində kapitalizm dünyasının ifşası; "Qələmlər Cəmiyyəti" üzvlərinin yaradıcılığındakı yeni təmayüllər haqqında; Müqəddimə: ("İnsan və quş" adlı ərəb hekayələri məcmuəsinə yazılmışdır); Ərəb ədəbiyyatında qadın azadlığı problemləri; Oktyabr ideyaları və Livan ədəbiyyatı;

Mütərəqqi Livan şairi Mişel Süleymanın "Yerdən doğan günəş" kitabı Azərbaycan dilində; Cənubi Amerikaya mühacirət etmiş ərəb ədib və şairlərinin fəaliyyəti haqqında; Yerdən doğan günəş (Mişel Süleyman "Yerdən doğan günəş", "Yazışı" 1978); İraq ədəbiyyatı haqqında; İki böyük yazıçının eyniadlı əsəri haqda; Humanist yazıçı; Ön söz: (F.Əliyevin "Azərbaycan-ərəb ədəbi əlaqələri". – B.: Yazıçı, 1987); Azərbaycan Sovet ədəbiyyatı ərəb dilində; Ədəbiyyatımızın qədim kökləri; Novruz Şərq ölkələrində.– ***Статьи*** *(на русском языке):* Объединение «Ар-рабыта ал-калямиййя» («Ассоциация пера») и его влияние на современную арабскую литературу; Об арабской литературе в эмиграции; Образы простых людей в новеллах ливанского писателя Минаила Нуайме; Азербайджанское отделение Всесоюзной Ассоциации Востоковедов (ВАВ); Чувство родины в творчестве арабов-эмигрантов; Палестинская проблема и современная арабская литература; Арабская печать в эмиграции (В Северной и Южной Америке); Рецензия: Куделин А.Б.: Средневековая арабская поэтика (вторая половина VIII–XI век.– М.: Наука, 1983); Русская литературно-критическая мысль и творчество М.Нуайме; Истоки арабско-русских культурных и литературных связей; Природа в творчестве Амина ар-Рейхани; Литературно-эстетические воззрения Амина ар-Рейхани; Романтизм ар-Рейхани в повести «Вне стен герема» и в малых прозаических жанрах; Вклад академика И.Ю. Крачковского в изучение арабской эмигрантской литературы; Илья Абу Мады – поэт пессимизма и оптимизма; Михаил Нуайме. Mikhail Naima. (Livan, «Lotus», OEURES Afro-Asiatiques 1973, Oktobre, Gaire); Нуайме М. Беседы с прессой; Самвел Абд аш-Шахид. Фаузи Аль-Малуф (1899-1930); Гасан





Хадда и Халид ал-Ани. Из истории мировой эмиграции арабов; К вопросу русско-арабских литературных связей (на примере новеллистики М.Нуайме).– ***Tərcümələr:*** **Mixail Nuaymə:** "Qu-Qu" saat; Umyaqubun toyuğu; İnsan və quş; Buz əriyəcək.– **Süheyl İdris:** Azadlıq.– Mahmud əz-Zahir: Boğulmuş hıçqırıqlar.– **Macid Zeyyib Ğənəma:** Növbəyə dayanmaq; Vətənin portreti.– **Sahib Camal**: Yusif. – Məhəmməd Dib: Hasin Dermək.

## Dövri mətbuatda və məcmuələrdə dərc olunan məqalələri

**1964**

**7. Mixail Nüaymə və XIX əsr rus ədəbiyyatı** / Aida İmanquliyeva // Azərbaycan. – 1964. – № 12. – S. 200–209.

**1967**

**8. Qorki və Ərəb Şərqi** / Aida İmanquliyeva // Azərbaycan. – 1967. – № 3–4. – S. 189–193.

**9. Müasir ərəb yazıçısı Mixail Nüaymənin novellalarındakı realizm haqqında** / Aida İmanquliyeva // Azərbaycan SSR EA-nın Xəbərləri: Ədəbiyyat, dil və incəsənət seriyası. – 1967. – № 3–4. – S. 218–225.

**1968**

**10. Əmin ər-Reyhani və din** / Aida İmanquliyeva // Azərbaycan. – 1968. – № 6. – S. 194–198.

**11. Qorki və Ərəb Şərqi** / Aida İmanquliyeva // Azərbaycan. – 1968. – № 6. – S. 189–194.

**1970**

**12. Ərəb xalqının məhəbbəti:** [V.İ.Leninin anadan olmasının 100 illiyi münasibətilə] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1970. – 25 aprel. – S.3.

**1971**

**13. Əmin ər-Reyhani və din** / Aida İmanquliyeva // Azərbaycan. – 1971. – № 9. – S. 194–198.

**14. İspaniyada ərəb ədəbiyyatının yaradılması və inkişafı tarixinə dair** / Aida İmanquliyeva // Azərb.SSR EA–nın Xəbərləri: Ədəbiyyat, dil və incəsənət seriyası. – 1971. – № 1. –S. 48–56. – Xülasə rus dilində.





**15. Livan yazıçısı Mixail Nüaymənin novellalarında sadə adamların obrazı:** Xülasə / Aida İmanquliyeva // Ərəb filologiyası məsələləri. – Bakı, 1971. – S. 171–172.

**1973**

**16. Ərəb Əndəlus ədəbiyyatının bəzi xüsusiyyətləri haqqında (X–XI əsrlər)** / Aida İmanquliyeva // Məruzələr / Azərb. SSR EA. – 1973. – XXIX. – № 3. – S. 81–85. – Xülasə rus və ingilis dillərində.

**17. Ərəb yazıçılarının əsərlərində kapitalizm dünyasının ifşası** / Aida İmanquliyeva // Azərbaycan. – 1973. – № 6. – S.178–183.

**18. "Qələmlər birliyi" üzvlərinin yaradıcılığındakı yeni təmayüllər haqqında** / Aida İmanquliyeva // Ərəb filologiyası məsələləri. – 1973. – Bur. II. – S. 54–61.

**19. Möhkəmlənən dostluq:** [Azərbaycan–ərəb mədəni əlaqələri haqqında] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1973. – 3 mart. – S. 12, 14.

**1974**

**20. İlya əl-Navi. İlya Əbu Madin pessimist və optimist şairdir:** rəy / Aida İmanquliyeva // Xarici ədəbiyyat üzrə referativ məcmuə: RCİL, filologiya və incəsənət / Elmlər Akademiyası İctimai Elmlər uzrə Elmi İnformasiya Mərkəzi. – Bakı, 1974. – № 2. – S. 83–88.

**21. Mixail Nüaymə "Lotos" jurnalında** (Qahirə, 1973, oktyabr): rəy / Aida İmanquliyeva // Xarici ədəbiyyat üzrə referativ məcmuə: RCİL, filologiya və incəsənət / Elmlər Akademiyası İctimai Elmlər uzrə Elmi İnformasiya Mərkəzi. – Bakı, 1974. – № 2. – S. 96–99.

**22. Müqəddimə** / Aida İmanquliyeva // İnsan və quş: Ərəb hekayələri. – Bakı, 1974. – S. 3–10.

**1975**

**23. Ərəb alimləri Həsən Hədda və Xalid əl–Amini "Ərəblərin dünyaya yayılma tarixindən" (Bağdad, 1972) monoqrafiyasına rəy** / Aida İmanquliyeva // Xarici ədəbiyyat üzrə referativ məcmuə: RCİL, filologiya və incəsənət / Elmlər Akademiyası İctimai Elmlər uzrə Elmi İnformasiya Mərkəzi. – Bakı, 1975. – № 4. – S. 41–44.

**24. Ərəb ədəbiyyatında qadın azadlığı problemləri** / Aida İmanquliyeva // Azərbaycan. – 1975. – № 10. – S. 191–197.

**25. Samvel Əbu əl–Şahidin "Fauzi əl–Məluf" (Beyrut, 1972) monoqrafiyasına rəy** / Aida İmanquliyeva // Xarici ədəbiyyat üzrə referativ məcmuə: RCİL, filologiya və incəsənət / Elmlər Akademiyası İctimai Elmlər uzrə Elmi İnformasiya Mərkəzi. – Bakı, 1975. – № 3. – S. 84–90.

**1976**

**26. Mixail Nüaymənin "Məktubla söhbətlər" (Beyrut, 1973) kitabına yazılmış rəy** / Aida İmanquliyeva // Xarici ədəbiyyat üzrə referativ məcmuə: RCİL, filologiya və incəsənət / Elmlər Akademiyası İctimai Elmlər uzrə Elmi İnformasiya Mərkəzi. – Bakı, 1976. – № 4. – S. 85–90.

**1977**

**27. Oktyabr ideyaları və Livan ədəbiyyatı** / Aida İmanquliyeva // Böyük Oktyabr və Şərq xalqlarının milli azadlıq mübarizəsi. – Bakı, 1977. – S. 158–167.

**1979**

**28. Cənubi Amerikaya mühacirət etmiş ərəb ədib və şairlərinin fəaliyyəti haqqında** / Aida İmanquliyeva // Ərəb





filologiyası məsələləri. – Bakı, 1979. – Bur. III. – S. 5–17.

**29. Mütərəqqi Livan şairi Mişel Süleymanın "Yerdən doğan günəş" kitabı Azərbaycan dilində** / Aida İmanquliyeva // Azərbaycan SSR EA-nın Xəbərləri: Ədəbiyyat, dil və incəsənət seriyası. – 1979. – № 3. – S. 121–124.

**30. "Yerdən doğan günəş":** [Livan şairi Mişel Süleymanın eyniadlı kitabının Azərbaycan dilində çapdan çıxması haqqında] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1979. – 3 mart. – S.6.

**1980**

**31. Azərbaycanda ərəbşünaslıq** / Aida İmanquliyeva; E.Ağayev // Elm və həyat. – 1980. – № 12. – S. 26.

**32. Cəlil Məmmədquluzadənin hekayələri ərəb dilində** / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1980. – 19 dekabr. – S. 6.

**33. Lenin və Ərəb Şərqi** / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1980. – 18 aprel. – S. 7.

**1983**

**34. Ədəbiyyatımızın qədim kökləri:** [Malik Mahmudovun "Ərəbcə yazmış şair və ədiblər: VII-XII əsrlər" kitabına yazdığı rəy] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1983. – 30 sentyabr. – S. 3.

**35. Humanist yazıçı:** [ərəb yazıçısı Mixail Nüaymə haqqında] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1983. – 18 mart. – S. 3.

**36. İraq ədəbiyyatı haqqında:** [ön söz] / Aida İmanquliyeva // Ağ günlərin sorağında: (İraq ədəbiyyatından nümunələr) / Cəmil Sidqi əz-Zəhavi [və b.]; [tərc. ed. V.Cəfərov və b.]. – Bakı, 1983. – S. 3–10.

**1984**

**37. İki böyük yazıçının eyniadlı əsəri haqqında:** [Ərəb məhcər ədəbiyyatının klassiki Mixail Nüaymənin və rus yazıçısı İ.Turgenyevin "Atalar və oğullar" əsərlərinin müqayisəli təhlili] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1984. – 1 iyun. – S. 3.

**1987**

**38. "Filosofların görüşləri" haqqında:** [Şihabəddin Yəhya Sührəvərdinin "Filosofların görüşü" əsərinin çapdan çıxması haqqında] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1987. – 31 iyul. – S. 6.

**39. Nizami və nəzirəçiləri**: [M.Kazımovun rus dilində çapdan çıxan "Nizaminin "Yeddi gözəl" əsəri və XIV–XVI əsrlərin farsdilli ədəbiyyatında nəzəri ənənələri" adlı kitabı haqqında] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1987. – 22 may. – S. 3.

**40. Ön söz** / Aida İmanquliyeva // Azərbaycan-ərəb ədəbi əlaqələri / Faiq Əliyev. – Bakı, 1987. – S. 3–8.

**1988**

**41. Humanist yazıçı:** [Mixail Nüaymənin vəfatı ilə əlaqədar] / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1988. – 18 mart. – S. 3.

**1989**

**42. Azərbaycan sovet ədəbiyyatı ərəb dilində** / Aida İmanquliyeva, Qəmbərov // Sovet Azərbaycanı və xarici Şərq: məqalələr məcmuəsi. – Bakı, 1989. – S. 121–129.

**1991**

**43. Novruz Şərq ölkələrində** / Aida İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1991. – 21 mart. – S. 2.





**1992**

**44. Ön söz** / Aida İmanquliyeva // Türkcə-Azərbaycanca lüğət / Tərt. ed. Ç.Qacar, S.Kazımbəyli, N.Qaramanlı. – Bakı, 1992. – S. 3–4.

**2009**

**45. Azərbaycan Sovet ədəbiyyatı ərəb dilində** / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 57–60.

**46. Cənubi Amerikaya mühacirət etmiş ərəb ədib və şairlərinin fəaliyyəti haqqında** / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 43–48; Ailə, Qadın, Uşaq. – 2009. – Xüsusi buraxılış. – S. 4–8.

**47. Cübran Xəlil Cübran: həyat və yaradıcılığı** / Aida İmanquliyeva // Sükutun poeziyası: (ərəb, ingilis və rus dillərindən seçilmiş tərcümələr) / Cübran Xəlil Cübran. – Bakı, 2009. – S. 11–41.

**48. Ədəbiyyatımızın qədim kökləri**: [professor Malik Mahmudovun "Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII-XII əsrlər)" kitabına yazdığı rəy] / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 61–63.

**49. Ərəb Əndəlus ədəbiyyatının bəzi xüsusiyyətləri haqqında (X–XI əsrlər)** / Aida İmanquliyeva // Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr: Aida İmanquliyeva – 70 = East and West: Common spiritual values, scientific–cultural links: Aida Imanguliyeva – 70 = Восток и Запад: Общие духовные ценности, научно-культурные связи: Аида Иманкулиева – 70. – Bakı, 2009. – S. 9.

**50. İki böyük yazıçının eyniadlı əsəri haqqında:** [M.Nüaymənin və İ.Turgenyevin "Atalar və oğullar" əsəri haqqında] / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 53–56.

**51. İraq ədəbiyyatı haqqında:** "Ağ günlərin sorağında" (İraq ədəbiyyatından nümunələr) kitabına yazılmış müqəddimə / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 49–53.

**52. İspaniyada ərəb ədəbiyyatının yaranması və inkişafı tarixinə dair** / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 25–29.

**53. "Qələmlər Cəmiyyəti" üzvlərinin yaradıcılığındakı yeni təmayüllər haqqında** / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 35–39.

**54. Qorki və Ərəb Şərqi** / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 30–34.

**55. M.Nüaymə və XIX əsr rus ədəbiyyatı** / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 13–24.

**56. Mütərəqqi Livan şairi Mişel Süleymanın "Yerdən doğan günəş" kitabı Azərbaycan dilində** / Aida İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 40–42.

**57. Novruz Şərq ölkələrində:** [qədim dövrlərdən Şərq ölkələrində keçirilən Novruz bayramı adət–ənənələri haqqında] / Aida İmanquliyeva // Folklor və etnoqrafiya. – 2009. – № 1. – S. 5–10; Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 64–67; Ədəbiyyat qəzeti. – 2009. – 9 oktyabr. – S. 1, 3.

### 2010

**58. Aida İmanquliyeva:** [məqalələrindən parçalar] / Aida İmanquliyeva // Ədəbiyyat qəzeti. – 2010. – 22 oktyabr. – S. 1.

### 2011

**59. Aida İmanquliyeva:** Müəllifin "Nizami və nəzirəçiləri" məqaləsindən, "Novruz Şərq ölkələrində" məqalələrindən / Aida İmanquliyeva // Ədəbiyyat qəzeti. – 2011. – 23 sentyabr. – S. 2.

**60. İki böyük yazıçının eyniadlı əsəri haqda:** [ərəb məhcər ədəbiyyatının tanınmış nümayəndəsi Mixail Nüaymənin





və görkəmli rus yazıçısı İ.Turgenevin "Atalar və oğullar" eyniadlı əsərlərinin müqayisəli təhlili] / Aida İmanquliyeva // Ədəbiyyat qəzeti. – 2011. – 14 oktyabr. – S. 1, 3.

### 2012

**61. Nizami və nəzirəçiləri** / Aida İmanquliyeva // Ədəbiyyat qəzeti. – 2012. – 5 oktyabr. – S. 3.

**62. Novruz Şərq ölkələrində** / Aida İmanquliyeva // Azərbaycanda Novruz / Azad Nəbiyev. – Bakı, 2012. –S. 51–57.

### 2013

**63. Humanist yazıçı:** [ərəb yazıçısı Mixail Nüaymənin həyat və yaradıcılığı haqqında] / Aida İmanquliyeva // Ədəbiyyat qəzeti. – 2013. – 11 oktyabr. – S. 4.

### 2014

**64. Novruz Şərq ölkələrində** / Aida İmanquliyeva // Azərbaycan. – 2014. – 4 mart. – S.5; Ədəbiyyat qəzeti. – 2014. – 7 mart. – S. 1, 3.

### 2019

**65. İraq ədəbiyyatı haqqında:** [ön söz] / Aida İmanquliyeva // Ağ günlərin sorağında: (İraq ədəbiyyatından seçmələr): Görkəmli şərqşünas və elm təşkilatçısı, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın əziz xatirəsinə həsr olunur / Tərt. ed.: A.N.İmanquliyeva, V.Cəfərov; red. M.R.Mahmudov; AMEA, akademik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutu. – II nəşri. – Bakı, 2019. – S.7–20.

## Tərcümələri

**1965**

**66. Nüaymə, M.** “Qu-Qu” saat: [müəllifin “Biri vardı, biri yox idi” hekayələr məcmuəsindən götürülmüş hekayə] / Mixail Nüaymə; ərəbcədən tərc. ed. A.İmanquliyeva // Ədəbiyyat və incəsənət. – 1965. – 10 aprel.

**1974**

**67. Mahmud əz-Zahir.** Üsyan /Mahmud əz-Zahir; ərəbcədən tərc. ed. A. İmanquliyeva // İnsan və quş: ərəb hekayələri. – Bakı, 1974. – S. 70–73.

**68. Məhəmməd Dib.** Hasin dermək / Məhəmməd Dib; ərəbcədən tərc. ed. A.İmanquliyeva // İnsan və quş: ərəb hekayələri. – Bakı, 1974. – S. 83–91.

**69. Nüaymə, M.** Buz əriyəcək / Mixail Nüaymə; ərəbcədən tərc. ed. A.İmanquliyeva // İnsan və quş: ərəb hekayələri. – Bakı, 1974. – S. 40–45.

**70. Nüaymə, M.** İnsan və quş / Mixail Nüaymə; ərəbcədən tərc. ed. A.İmanquliyeva // İnsan və quş: ərəb hekayələri. – Bakı, 1974. – S. 36–39.

**71. Nüaymə, M.** “Qu-Qu” saat / Mixail Nüaymə; ərəbcədən tərc. ed. A.İmanquliyeva // İnsan və quş: ərəb hekayələri. – Bakı, 1974. – S. 24–31.

**72. Nüaymə, M.** Umyaqubun toyuğu / Mixail Nüaymə; ərəbcədən tərc. ed. A.İmanquliyeva // İnsan və quş: ərəb hekayələri. – Bakı, 1974. – S. 32–35.

**73. Sahib Camal.** Yusif / Sahib Camal; ərəbcədən tərc. ed. A.İmanquliyeva // İnsan və quş: ərəb hekayələri. – Bakı, 1974. – S. 74–82.





**74. Süheyl, İdris.** Azadlıq / Süheyl İdris; ərəbcədən tərcümə ed. Aida İmanquliyeva // İnsan və quş: ərəb hekayələri. – Bakı, 1974. – S. 46–54.

**1983**

**75. Mahmud əz-Zahir.** Boğulmuş hıçqırıqlar / Mahmud əz-Zahir; ərəbcədən tərc. ed. A.İmanquliyeva // Ağ günlərin sorağında: İraq ədəbiyyatından nümunələr. – Bakı, 1983. – S. 129–133.

**1984**

**76. Macid Zeyyib Ğənəma.** Növbəyə dayanmaq; Vətənin portreti: hekayələr / Macid Zeyyib Ğənəma; ərəbcədən çevirəni: A.İmanquliyeva, M.Qənbərov // Ədəbiyyat və incəsənət. – 1984. – 6 iyul. – S. 3.

**2009**

**77. Macid Zeyyib Ğənəma.** Vətənin portreti / Macid Zeyyib Ğənəma; ərəbcədən tərc. ed. A.İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 77.

**78. Mahmud əz-Zahir.** Boğulmuş hıçqırıqlar / Mahmud əz–Zahir; ərəbcədən tərc. ed. A.İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 75-76.

**79. Nüaymə, M.** “Qu-qu” saat / Mixail Nüaymə; ərəbcədən tərc. ed. A.İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 69-72.

**80. Nüaymə, M.** Umyaqubun toyuğu / Mixail Nüaymə; ərəbcədən tərc. ed. A.İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 72.

**81. Sahib Camal.** Yusif / Sahib Camal; ərəbcədən tərc. ed. A.İmanquliyeva // Azərbaycan şərqşünaslığı. – 2009. – № 2. – S. 78–80.

